

### ERMƏNİSTANIN DAHA BİR YALANI ÜZƏ ÇIXDI

Ermənistan Milli Təhlükəsizlik Xidmətinin yaydığı məlumata əsasən, İrəvan Azərbaycana yeni mina xəritələrini təhvil verəcəyini vəd edib. MTX yaxın günlərdə işçi kanallar vasitəsilə Azərbaycan tərəfinə minalanmış sahələr haqqında məlumatların yer aldığı 8 yeni xəritənin veriləcəyini açıqlayıb.

SƏHİFƏ 2-də

# Artıq avtobuslar daha tez gəlir

Bakının və Abşeron rayonunun küçə və prospektlərində 21 avtobus zolağı mövcuddur. Həmin zolaqlar nəticəsində intervallardakı azalmaları artıq hiss edə bilirik.

Əhalinin gedəcəyi yerlərə daha rahat və tez çatması üçün mütəmadi işlər görülür. Avtobus zolaqlarının salınmasındakı məqsəd insanları ictimai nəqliyyata cəlb etmək və insanların gedəcəkləri yerə günün pik saatlarında tıxacda qalmadan daha rahat çatdırmalarını təmin etməkdir.

Nəqliyyat məsələləri üzrə ekspert Rövşən Həsənovun fikrincə, avtobus zolaqlarına digər sürücülərin daxil olmasının qarşısı alınarsa, interval daha da qısaldıla bilər: "Bir neçə istiqamətdə bu kimi işlər görülüb. Məsələn, Bakı-Sumqayıt yolunda avtobus zolağı ayrılıb. Bu, qismən də olsa marşrutun intensivliyini təmin edə bilər".




SƏHİFƏ 10-da

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

27 YANVAR ŞƏNBƏ 2024 I 03 (4154)
Qiyməti - 40 qəpik
www.kaspi.az





### DƏRMAN İDXALIMIZ NİYƏ AZALIB?

Əczaçılıq məhsulları idxalında müşahidə edilən əhəmiyyətli azalma müxtəlif amillərlə əsaslandırılır. Ekspertlərin bir qismi bunu daxili dərman istehsalının artması ilə bağlayırsa, digərləri başqa sahələrdə qeydə alınan bahalaşmanın dərman alışına da ciddi təsir etdiyini düşünür.

SƏHİFƏ 6-da



### "SATIŞLARIMIZ İKİ DƏFƏ AZALIB"

Bazarlarımızda xaricdən gətirilmiş ətlərə daha çox rast gəlirik. Müştərilərin daha çox yerli, yoxsa xaricdən gətirilən ətə üstünlük verdiklərini öyrənmək üçün bu sahənin peşəkarları ilə söhbətləşdik. Müsahibimiz uzun illərdir peşəkar qəssab fəaliyyəti ilə məşğul olan Səbuhi Hüseynovdur.

SƏHİFƏ 11-də

FRANSA-ALMANİYA CÜTLÜYÜNÜN AZƏRBAYCANA QARŞI ORTAQ LAYİHƏSİ



# DƏYƏRLƏRƏ XƏYANƏT NÜMUNƏSİ

Azərbaycan heç bir siyasi təzyiqə, şantaja boyun əyməyəcəyini dəfələrlə sübut edib. Avropa strukturlarının budəfəki təzyiq və şantaj dalğasının da iflasa uğrayacağı heç kimdə şübhə doğurmamalıdır.

**AŞPA-DA "FRANSIZ ƏLİ" İLƏ ÜZ-ÜZƏ**

Qurumun bu qərarı verərkən irəli sürdüyü "arqumentlər"ə nəzər saldıqda bir daha AŞPA-nın siyasi oyununun arxasında hansı əlin dayandığını açıq-aşkar görmək mümkündür. Üzdə Almaniya təmsilçisi Frank Şvabe görünsə də, anti-Azərbaycan orkestrinin əsl dirijorunun Fransa olduğu qətidir.

**TƏZAD, İKİLİ STANDART VƏ ƏDALƏTSİZLİK**

Anti-Azərbaycan səsvermərsinə qatılanların düşüncəsində öz xoşları ilə, könüllü şəkildə həm də heç bir təzyiq və işgəncəyə məruz qalmadan ermənilərin Qarabağdan çıxıb getməsi demokratiyanın, insan haqlarının, azadlıqlarının kobud şəkildə pozulmasıdır. Budur təzad, budur ikili standart və ədalətsizlik.

SƏHİFƏ 3-də

"ŞUŞANIN QƏLBİMİZDƏ XÜSUSİ YERİ VAR"

## AZƏRBAYCANLI QIZLA İNGİLİS OĞLANIN XOŞBƏXT AİLƏSİ



Yəqin ki, çoxumuz sosial şəbəkələrdə Azərbaycan dilində danışan ingilis vətəndaşı və onun azərbaycanlı həyat yoldaşını görmüşük. Bu cütlük - Tomas və Röyalə Amiral Moody ailəsidir. Onlar özlərini "Anglobaijani" adlandırırlar. 2011-ci ildən ailəli olan bu cütlüyün Əsgər, Elizabet və Osman adında üç övladı var. Bu ailə sosial şəbəkələrdə Azərbaycan mahnıları ifa etmək, rəqslərimizi oynamaqla məşhurdur.

SƏHİFƏ 8-9-da



### YAXIN ŞƏRQDƏ YENİ MÜHARİBƏ RİSKİ

Pakistana hücum İranın daha təhlükəli vəziyyətlərlə üzləşməsinə səbəb oldu. Nüvə silahına malik 230 milyonluq Pakistanın cavab zərbələri İslamabadın Tehranın müdaxilələrinə səbirli davranmayacağını göstərdi.

SƏHİFƏ 5-də



### UŞAQLARI İNTERNATLARA APARAN SƏBƏBLƏR

Uşaqların internat müəssisələrinə düşməsinin qarşısının alınması istiqamətində işlər aparılsa da, hələ də problem ciddiliyini qoruyur. Ən pisi odur ki, ildən-ilə internatlara göndərilən uşaqların sayı artır.

SƏHİFƏ 14-də



### "YER ÜZÜNDƏKİ CƏNNƏT"DƏN REPORTAJ

Kapri - füsunkar mənzərələri ilə tanınan kiçik bir adadır. Vulkan püskürməsindən sonra yaranıb. Sahilləri mağaralar və kiçik italyan kəndləri ilə doludur. Bütün həyətlər limon, zeytun və üzüm bağları ilə əhatə olunub.

SƏHİFƏ 12-də



Daha 30 ailə Füzuli şəhərinə qayıdıb

SƏHİFƏ 2-də



Zədəli pullarımızı necə dəyişək?

SƏHİFƏ 7-də



Paşinyanın konstitusiya oyunları

SƏHİFƏ 4-də



"Biz ondan doymadıq..."

SƏHİFƏ 15-də



Avropada sürprizlər mövsümü

SƏHİFƏ 16-da



## Seçkilərdə üç təşkilat “exit-poll” keçirəcək

Mərkəzi Seçki Komissiyasının (MSK) son iclasında növbədənkənar prezident seçkilərində “exit-poll” keçirmək üçün akkreditasiya ilə əlaqədar üç təşkilatın müraciətinə baxılıb. Məsələ barədə MSK-nın sədr müavini Rövzət Qasımov məlumat verib. Qeyd edilib ki, növbədənkənar prezident seçkilərində “exit-poll” keçirmək üçün akkreditasiya ilə əlaqədar Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası, Rəy Monitorinq Mərkəzi və “Sosioloji Tədqiqatlar Mərkəzi” MMC sənədlərini MSK-ya təqdim edib. Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası “exit-poll”u ABŞ-nin “Oracle Advisory Group” təşkilatı ilə birgə keçirmək niyyətindədir. Məsələ səsverməyə çıxarılıb və sözügedən təşkilatların akkreditasiyaya alınması barədə qərar qəbul edilib.



## Daha 30 ailə Füzuli şəhərinə qayıdıb

Füzuli şəhərinə köçən daha 30 ailəyə (104 nəfər) evlərinin açarları təqdim edilib. “Report” xəbər verir ki, mərasimdə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları iştirak ediblər.

Bununla da Füzuli şəhərində 500 ailə olmaqla, 1854 nəferin daimi məskunlaşması təmin edilib.

Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

# Ermənistanın daha bir yalanı üzə çıxdı

2020-ci ilin noyabr ayından indiyədək 342 şəxs mina və hərbi sursat partlayışlarının qurbanı olub. Həmin şəxslərdən 65-i həlak olub, 277 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.




Uzun müddətdir ki, Azərbaycan Ermənistandan işğaldan azad edilmiş ərazilərə dair mina xəritələrinin verilməsini tələb edir. Lakin İrəvan israrla onda artıq heç bir mina xəritəsinin olmadığını bildirib. Yaşanan son proseslər Ermənistanın bu məsələdə də yalan danışdığını ortaya çıxarıb.

### ERMƏNİSTANDA SƏKKİZ YENİ MİNA XƏRİTƏSİ VAR

Ermənistan Milli Təhlükəsizlik Xidmətinin (MTX) yaydığı məlumata əsasən, İrəvan Azərbaycana yeni mina xəritələrini təhvil verəcəyini vəd edib. MTX yaxın günlərdə işçi kanallar vasitəsilə Azərbaycan tərəfinə minalanmış sahələr haqqında məlumatların yer aldığı 8 yeni xəritənin veriləcəyini açıqlayıb.

### BÖYÜK QAYIDIŞA ƏSAS TƏHDİD

Artıq İrəvanın məlum açıqlamasına rəsmi Bakının reaksiyası da məlumdur. Xarici İşlər Nazirliyindən bildirilib ki, Ermənistanın təqdim etdiyi mina xəritələrinin yararsızlığı və natamamlığı dəfələrlə vurğulanıb: “Ermənistan tərəfindən Azərbaycan ərazilərinin heç bir fərq qoymadan, kütləvi və məqsədyönlü şəkildə minalanması post-münaqişə dövründə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinə, bu ərazilərdə fəaliyyət göstərən mülki əhaliyə, habelə məcburi köçkünlərin geri qayıtmasına və öz yerlərində dinc yaşamasına çətinlik törədən əsas təhdidlərdəndir. Ermənistanın bu fəaliyyəti müharibə cinayəti olmaqla yanaşı, beynəlxalq humanitar hüququn və Ermənistanın üzərinə götürdüyü öhdəliklərin ciddi pozuntusudur. Azərbaycan tərəfi dəfələrlə, həm 2020-ci il Vətən müharibəsindən əvvəl, həm də post-münaqişə dövründə Ermənistan tərəfindən mina xəritələrinin təqdim edilməsini tələb edib”.



### YARARSIZ VƏ NATAMAM XƏRİTƏLƏR



Bildirilir ki, 10 noyabr 2020-ci il tarixli Üçtərəfli bəyanatın imzalanmasından sonra, əvvəlcə ümumiyyətlə mina xəritələrinin olmasını inkar edən Ermənistanın daha sonradan beynəlxalq təzyiq nəticəsində təqdim etdiyi kiçik qisim mina xəritələrinin etibarlılığının yalnız 25% təşkil etdiyi məlumdur: “Təqdim edilmiş bu xəritələrin yararsız və natamam olduğu, real vəziyyəti əks etdirmədiyi dəfələrlə tərəfimizdən bildirilib. Bu xəritələrdə ərazilərimizdə guya 400 min mina basdırıldığı qeyd olunsa da, reallıqda minaların sayının 1 milyondan artıq olduğu faktı mövcuddur”.

### ERMƏNİSTAN HAKİMİYYƏTİNİN SAXTA “HUMANİZM” GEDİŞLƏRİ

XİN-in bəyanatında daha sonra qeyd edilir ki, 2020-ci ildən sonra da Ermənistan tərəfindən Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində və bu ərazilərin perimetrləri boyunca Ermənistan istehsalı olan yeni minaların yerləşdirildiyi faktı mövcuddur. Burada da 500 mindən artıq mina basdırıldığı məlumdur. Bu, eyni zamanda, son onilliklər ərzində Ermənistan tərəfindən guya minaların istehsal və ixrac edilmədiyi barədə bəyanatların heç bir əsasının olmadığını nümayiş etdirib. Ermənistan tərəfinin bu açıqlaması sözügedən ölkənin niyyətinin humanitar prosesə töhfə olmadığını göstərir və bu addım etimad quruculuğu tədbiri kimi qiymətləndirilə bilməz.

### 342 ŞƏXS MİNA TERRORUNUN QURBANI OLUB

Azərbaycanda 2020-ci ildən sonra mina terrorunun qurbanı olmuş vətəndaşlarımızla bağlı son statistika da açıqlanıb. “2023-cü ildə 58 şəxs Ermənistanın mina terrorunun qurbanı olub”, - Baş prokuror Kamran Əliyev deyib. Onun sözlərinə görə, nəticədə 19 nəfər həlak olub, 39 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Baş prokuror, həmçinin qeyd edib ki, 2020-ci ilin noyabr ayından indiyədək 342 şəxs mina və hərbi sursat partlayışlarının qurbanı olub, həmin şəxslərdən 65-i həlak olub, 277 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

FRANSA-ALMANİYA CÜTLÜYÜNÜN AZƏRBAYCANA QARŞI ORTAQ LAYİHƏSİ




# DƏYƏRLƏRƏ XƏYANƏT NÜMUNƏSİ

Azərbaycan heç bir siyasi təzyiqə, şantaja boyun əyməyəcəyini dəfələrlə sübut edib. Avropa strukturlarının budəfəki təzyiq və şantaj dalğasının da iflasa uğrayacağı heç kimdə şübhə doğurmamalıdır.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Azərbaycan növbəti dəfə Qərbin "demokratik strukturları" tərəfindən ikili standartlı, qərəzli və heç bir siyasi çərçivəyə sığmayan münasibətlə üzləşib. Avropa Şurası Parlament Assambleyası (AŞPA) nümayəndə heyətimizin etimadnaməsini təsdiq etməyib. Buna cavab olaraq Azərbaycanın qurumdakı nümayəndə heyəti tam tərkibdə AŞPA ilə əməkdaşlığı qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəlib.

**AŞPA-DA "FRANSIZ ƏLİ"**

Qurumun bu qərarı verərkən irəli sürdüyü "arqumentlər"ə nəzər saldıqda bir daha AŞPA-nın siyasi oyununun arxasında hansı əlin dayandığını açıq-aşkar görmək mümkündür. Üzdə Almaniya təmsilçisi Frank Şvabe görünsə də, anti-Azərbaycan orkestrinin əsl dirijorunun Fransa olduğu qətidir. Paris Avropanın siyasi strukturlarındakı təsir dairəsindən istifadə edərək AP-nin ardınca AŞ-nı da ölkəmizə qarşı həyata keçirtdiyi "xaç yürüşünün səlibçisi"nə çevirir. Ermənistanın "qoruyucu mələyi"nə çevrilən bu təşkilatların son üç ildə ölkəmizə qarşı təzyiq kampaniyası artıq bütün qırmızı xətləri keçməkdədir.

**ƏSASSIZ VƏ ÇÜRÜK İTTİHAMLAR**

Frank Şvabenin Parisdə hazırlanan çıxış mətnində Qarabağın ermənəsilli sakinlərinin bölgədən zorakılıqla köçürüldüyü iddia edilir. Bu iddianın nə dərəcədə əsassız və çürük olduğu avropalı deputatlara çoxdan məlumdur. Ən azından Laçın yoluyla köç edən ermənilərin mətbuata açıqlamaları, Ermənistan baş naziri Nikol Paşinyanın bu məsələ ilə bağlı etirafları, ən mühümü isə, BMT missiyasının işğaldan azad edilən rayonlara səfərlərinin yekunu ilə bağlı hesabatlarına nəzər salmaq kifayətdir.

Ölkəmizə qarşı irəli sürülən digər ittihamlar isə Azərbaycanda "siyasi məhbus"ların olması və AŞPA-nın fevralın 7-də keçiriləcək seçkilərə müşahidəçi qismində dəvət edilməməsi ilə bağlıdır. Qondarma "siyasi məhbus" arqumenti Azərbaycan təşkilata üzv olan vaxtdan ölkəmizə qarşı hər zaman istifadə edilib. Budəfəki "tələb"in əsas qaynağı isə Azərbaycanın Parisin bölgədəki casus şəbəkəsinin ifşa etməsi, həmçinin bu istiqamətdə "beşinci kolon" təmsilçilərinin təmizlənməsi prosesi, ən əsas da fransız neokolonializminin ifşası ilə bağlı beynəlxalq səviyyədə atılan addımlardır.

## TƏZAD, İKİLİ STANDART VƏ ƏDALƏTSİZLİK




2020-2023-cü illər ərzində də AŞPA tərəfindən Azərbaycana qarşı bir sıra təxribat xarakterli qərarlar qəbul edilib. Separatizmə, işğala, terror mənbəyinin mövcudluğuna son qoyan Bakının qalibiyyəti sanki Qərbdəki ermənidən daha çox erməni olanların yuxusuna haram qatıb. Yeri gəlmişkən, Azərbaycanın işğala məruz qalması faktını AŞPA özü də təsdiqləyib və bu istiqamətdə qətnamələri mövcuddur. Lakin həmin qətnamələrin tələblərinin yerinə yetirilməməsi ilə bağlı 23 il ərzində işğalçı dövlət olan Ermənistanın nə səsvermə hüququ dondurulub, nə də İrəvana "gözün üstündə qaşın var" deyən olub. 30 il məcburi köçkün həyatı yaşamağa məcbur olan, soyqırımına, deportasiyaya məruz qalan bir milyondan artıq azərbaycanlının hüquqlarının pozulması sanki Avropa Şurasının təməl prinsiplərinin pozulması deyilmiş. Ancaq anti-Azərbaycan səsvermısinə qatılanların düşüncəsində öz xoşları ilə, könüllü şəkildə həm də heç bir təzyiq və işgəncəyə məruz qalmadan ermənilərin Qarabağdan çıxıb getməsi demokratiyanın, insan haqlarının, azadlıqlarının kobud şəkildə pozulmasıdır. Budur təzad, budur ikili standart və ədalətsizlik.

İndi sual olunur, öz dəyərlərini və varlığını ayaqlar altına alan, Parisin, Brüsselin siyasi girovuna çevrilərək erməni lobbisinin maşası halına gələn AŞPA-nın qalib Azərbaycan xalqının öz iradəsini bir daha ortaya qoyacağı seçki prosesinə dəvətinin nə əhəmiyyəti var?

**PARİS NİYƏ QORXUR?**

Proseslərə daha dərindən yanaşdıqda Parisin Ermənistanı "qorumaq missiyası"nın arxasında ciddi qorxunun olduğunu da görə bilərik. Azərbaycan Ermənistana qarşı milyardlarla dollar dəyərində maddi-mənəvi təzminat davası açmağa hazırlaşır. Əhalisi "miatsum" ideyasının girovuna çevrilərək bu gün yoxsul həyat tərzi sürən, miqrasiya nəticəsində şəhərləri, kəndləri boşalan İrəvanın bu təzminatı verəcək nə iqtisadi gücü var, nə də pulu. Ədalət məhkəməsində beynəlxalq hüquqa əsaslanan haqlı qərar çıxarsa, ermənilərin üz tutacağı, pul dilənəcəyi dövlətlərin, mərkəzlərin başında indi yağlı vədlərlə nüfuz qazanmağa çalışan Paris gələcək. Bəs Fransa və onun əlaltıları ermənilər üçün milyardlarından keçməyə hazırdırmı? Bu ritorik sualın cavabını Ukraynanın timsalında tapa bilərik. Heç bir siyasi təzyiqə, şantaja boyun əyməyəcəyini rəsmi Bakı dəfələrlə sübut edib. Ərazi bütövlüyünü, suverenliyini öz gücü və imkanları hesabına təmin edən qalib dövlətin milli maraqlarını hər şeydən və hər kəsdən üstün tutacağını atdığımız addımlarla isbatlamışıq. Budəfəki təzyiq və şantaj dalğasının da iflasa uğrayacağı indidən məlumdur.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# PAŞİNYANIN KONSTİTUSİYA OYUNLARI

Nikol Paşinyanın yeni konstitusiya təklifi kilsə ilə də münasibətlərinə aydınlıq gətirəcək. Uzun müddətdir ki, "Vətəndaş müqaviləsi"nin Eçmiədzinlə münasibətləri gərgindir. Baş nazir bu problemi birdəfəlik həll etmək fikrinə düşə bilər.

FUAD ABASOĞLU

**2018**-ci ildə Sorosun dəstəyi ilə Ermənistanda hakimiyyətə yiyələnən Nikol Paşinyan dövlətin atributlarını bəyənmədiyini hər vəchlə büruzə verib. İlk olaraq ölkənin konstitusiyasına "əl gəzdirməyin" vacib olduğunu bildirən baş nazir sonradan Ermənistan gerbinin də dəyişdirilməsinin zəruriliyindən danışıb. O bildirib ki, gerbin müasir respublika ilə heç bir əlaqəsi yoxdur. Bu yaxınlarda hay ölkəsinin ədliyyə nazirliyində keçirilən görüşdə baş nazir bildirib ki, təmsil etdiyi dövlətin konstitusiya dəyişikliyinə yox, yeni konstitusiyaya ehtiyacı var.

### ERMƏNİSTANDAKI SON KONSTİTUSİYA DƏYİŞİKLİKLƏRİ

Ermənistanda 1995, 2006 və 2015-ci illərdə ciddi konstitusiya dəyişikliyi baş tutub. Məqsəd hakim elitanın, bəzən də hansısa nüfuzlu siyasi fiqurun maraqlarını təmin etmək olub. Heç bir halda bu dəyişiklik ölkədəki problemləri həll etmək, sadə ermənin sosial vəziyyətini yaxşılaşdırmaq məqsədi daşımayıb. Bu səbəbdən, Nikol Paşinyanın "yeni konstitusiyaya ehtiyac var" fikrini də şəxsi siyasi planları prizmasından dəyərləndirmək mümkündür.

### PAŞİNYANIN ƏVVƏLKİ CƏHDLƏRİ

Yeni Konstitusiyanın qəbulu ilə bağlı Paşinyan komandasının ilk cəhdi 2020-ci ilin 6 fevral tarixində qeydə alınıb. Onun təşəbbüsü ilə "Mənim addımım" bloku tərəfindən parlamentdə Ermənistan konstitusiyasına dəyişiklik təklifi ilk oxunuşda qəbul edilib. 9 fevralda isə prezident Armen Sarqsyan referendum keçirilməsi ilə bağlı fərman imzalayıb. Sonradan baş verən hadisələr bu dəyişiklik və referendum təklifini təxirə salıb.

### YENİ KONSTİTUSİYAYA YÖNƏLMƏYƏ MƏCBUR EDƏN SƏBƏBLƏR

Təbii ki, baş naziri "yeni konstitusiyaya ehtiyac var" fikrini səsləndirməyə məcbur edən digər səbəblər də var. Məsələn, Ermənistanın müstəqillik bəyannaməsi və konstitusiyası Dağlıq Qarabağla birləşmə haqqında 1 dekabr 1989-cu il tarixli Deklarasiyaya əsaslanır. Azərbaycanla sülh danışıqları üzrə müzakirələrin intensivləşdiyi, erməni tərəfinin parlament spikeri Alen Simonyanın dili ilə ikitərəfli danışıqlara müsbət yanaşıldığı bir dövrdə, təbii ki, konstitusiyada yuxarıdakı məsələni ehtiva edən maddənin dəyişdirilməsi lazımdır. Baş nazir anlayır ki, sülh müqaviləsini imzalamaq üçün qondarma "miatsum" fikrini erməni cəmiyyətinin təfəkküründən silmək lazımdır. Belə bir maddənin ölkənin əsas qanununda qalması ciddi problemlərə səbəb ola bilər.

## QONDARMA ERMƏNİ SOYQIRIMI İDDİASINA RƏSMƏN SON VERİLMƏLİDİR

İki ilə yaxındır ki, erməni siyasi elitası Türkiyə ilə sərhəddə yerləşən Marqara keçid məntəqəsinin açılışa hazır olması barədə fikirlər səsləndirir. Amma Türkiyə tərəfi hər dəfə də Azərbaycanla münasibətlərin əsas şərt olduğunu dilə gətirir. Eyni zamanda, Ermənistan qondarma erməni soyqırımı iddiasından da əl çəkməlidir. Bu səbəbdən, konstitusiya dəyişikliyi ilə birlikdə hakim partiyanın qondarma erməni soyqırımı məsələsinə də düzəliş etməsi mümkün görünür. Çünki Ankara və Bakı ilə münasibətləri normallaşdırmadan erməni dövləti nə inkişaf edə, nə də daxili sosial problemləri həll edə bilər.

### KİLSƏ İLƏ MÜNASİBƏTLƏRİ TƏNZİMLƏMƏK ÜÇÜN FÜRSƏT

Ehtimal edilir ki, baş nazir təklif etdiyi yeni konstitusiya ilə Kilsə ilə də münasibətlərinə aydınlıq gətirəcək. Uzun müddətdir "Vətəndaş müqaviləsi"nin Eçmiədzinlə də arası sərindir. Kilsə konkret olaraq Paşinyanın hakimiyyətinə qarşı çıxır və onu müharibədəki məğlubiyyətin birbaşa səbəbkarı kimi göstərir. Eyni zamanda, I Qaregin, erməni kilsəsinin müxtəlif iri ranqlı ruhaniləri müxtəlif dövrlərdə xalqı hakimiyyətə qarşı üsyana da səsləyiblər. Heç nəyi unutmayan və məqamı yetişəndə qisas almağı üstün tutan Paşinyan təbii ki, yeni konstitusiya ilə kilsədən də intiqamını alacaq. Ehtimallara əsasən, kilsə ilə bağlı maddə yeni konstitusiyadan çıxarıla və ya onun əsas səlahiyyətlərinə xitam verilə bilər.



## PAŞİNYANIN ƏSAS HƏDƏFİ HAKİMİYYƏTİNİ MÖHKƏMLƏTMƏKDİR

Erməni siyasi dairələrindəki müzakirələrə görə, konstitusiya dəyişikliyi Paşinyana dördüncü respublikanı elan etməyə şərait yaradacaq. Dəyişiklikdən sonra baş nazir siyasi mühiti yeniləməyə cəhd göstərəcək. Eyni zamanda, inqilabdan sonra həll edilməmiş məsələ kimi qalan əvvəlki hakimiyyətin hərəkətlərinə hüquqi qiymət verilməsinə də nail olmaq mümkündür.

Həmçinin, konstitusiyada məhkəmələrlə bağlı maddəyə də dəyişiklik edilə bilər. Çünki ədalət sistemini və qəbul edilən qərarları özünə bağlamaq mövcud siyasi vəziyyətdə baş nazir üçün vacibdir. Bu günə qədər məhkəmə sistemində hələ də keçmiş Ermənistan rəhbərləri Serj Sarkisyan və Robert Köçəryanı dəstəkləyənlərin sayı az deyil. Zaman-zaman məhkəmələrdə məhz bu şəxslərin lehinə qərarların çıxması da Nikolun diqqətindən yayınmayıb.

Göründüyü kimi, Ermənistanın baş naziri yeni konstitusiya ilə bir sıra hədəflərinə çatmağı təmin etməyi düşünür. Əsas hədəfi təbii ki, hakimiyyəti möhkəmlətməkdir.



İRAN İLƏ PAKİSTAN ARASINDAKI GƏRGİNLİYİN PƏRDƏARXASI MƏQAMLARI

# YAXIN Şərqdə yeni müharibə riski



Pakistana hücum İranın daha təhlükəli vəziyyətlərlə üzləşməsinə səbəb oldu. Nüvə silahına malik 230 milyonluq Pakistanın cavab zərbələri İslamabadın Tehranın müdaxilələrinə səbirli davranmayacağını göstərdi.



AZƏR NURİYEV

Ötən həftə Yaxın Şərq növbəti müharibə təhlükəsini yaşadı. Yenə də katalizator rolunda İran çıxış etdi. Tehran rejimi terrora qarşı mübarizə adı altında İraq, Suriya, hətta Pakistan ərazisini bombalamaqla dünyaya şok yaşatdı. Ümid etdi ki, hücumları cavabsız qalacaq, maksimum etiraz bəyanatlarıyla üzləşəcək. Düzdür, İraq və Suriya ilə bağlı gözləntilər özünü doğrultdu, amma Pakistan hücumları cavabsız qoymadı.

Uzun illərdir İraqda sabitliyin olmaması, mərkəzi hakimiyyətin zəifliyi, bu ölkədə çox sayda İrana bağlı qüvvələrin mövcudluğu Tehranın bu ölkəyə dəfələrlə hərbi müdaxiləsinə imkan verib. Suriyadan isə danışmağa dəyməz. Ancaq Pakistana hücum İranın daha təhlükəli durumla üzləşməsinə səbəb oldu. Nüvə silahına malik 230 milyonluq Pakistanın 24 saat ərzində İrana cavab zərbələri, ordusunu döyüş hazırlığı vəziyyətinə gətirməsi İslamabadın Tehranın müdaxilələrinə səbirli davranmayacağını göstərdi.

## GƏRGİNLİYİN ƏSAS SƏBƏBİ



Bir faktı da qeyd edək ki, məsələ üzdə İran-Pakistan gərginliyi kimi görünsə də, əslində, hər iki ölkə pərdəarxasında bəluclara qarşı antiterror əməliyyatı keçirir. Bunu XİN başçılarının bəyanatları da təsdiq edir. Pakistan Xarici İşlər Nazirliyinin bəyanatında qeyd olunur ki, "Pakistan İran İslam Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmət edir". Bənzər açıqlamanı İran tərəfi də verib. Bəlucların müstəqillik arzusu hər iki ölkə üçün uzun illərdir başağrısına çevrilib. Buna görə də tərəflər ayrı-ayrılıqda bir-birinin ərazisində əməliyyatlar keçirərək, əslində, bir-birinə fayda da verir.

## TOQQUŞMADAN SONRAKI YAXINLAŞMA TƏƏCCÜBLÜ DEYİL

Bütün bunların fonunda toqquşmadan sonrakı yaxınlaşmaya təəccüblənməyə ehtiyac yoxdur: İran Pakistanın müstəqilliyini tanıyan ilk ölkə olub. İki ölkə arasında diplomatik münasibətlər 1947-ci ildən mövcuddur. Hər iki ölkə ABŞ-nin də daxil olduğu SENTO hərbi ittifaqının üzvü olublar. 1971-ci ildə Hindistan-Pakistan müharibəsi zamanı Karaçinin hava hücumundan müdafiəsi İran Hərbi Hava Qüvvələrinə həvalə edilmişdi ki, bu da gizli razılaşmada qeyd olunurdu. İran Pakistanın "Taliban"a və bəzi digər qruplara dəstəyindən narazı olsa da, onların münasibətlərini Hindistan və Pakistan arasında hökm sürən gərginliklə müqayisə etmək olmaz. Digər səbəb isə hər iki ölkənin xalqlarının bir-birilərini dəstəkləmələridir.

1979-cu il İran inqilabından sonra da iki ölkə arasında əlaqələr inkişaf edib. İran-İraq müharibəsi zamanı Pakistan birinciyə hərbi yardım göstərib. 2013-cü ildə "BBC World Service Poll" keçirdiyi rəy sorğusunun nəticələrinə əsasən, pakistanlı respondentlərin 76 faizi İrana xoş münasibət göstərib. İki ölkə arasında ticarət əlaqələri də artan xətt üzrə inkişaf edir. 2022-2023-cü illərdə İranla Pakistan arasında ticarət dövriyyəsi 2 milyard 330 milyon dollar təşkil edib. Bu da əvvəlki dövrlə müqayisədə 30 faiz çoxdur. İran Pakistandan da keçən təbii qaz kəməri çəkməyi planlaşdırır. Bununla belə, tərəflər arasında maraqların toqquşduğu məqamlar da az deyil. Təxminən bir il əvvəl İran Pakistanı təbii qaz kəməri tikintisini ləngitməkdə ittiham edərək bu ölkəyə qarşı 18 milyard dollarlıq iddia qaldıracağı ilə hədələmişdi.

## ÇİNDƏN PAKİSTANA 200 MİLYON DOLLAR

İranın bombaladığı Bəlucistan regionu 1783-1958-ci illərdə indiki Omanın ərazisi sayılıb, 1958-ci ildən Pakistanın nəzarəti altındadır. Onu da bildirək ki, hazırda Bəlucistanın nəqliyyat infrastrukturunun əsas sərmayəçisi Çindir. Pekin Qvadarda dərin dəniz limanının tikintisi üçün Pakistana 200 milyon dollar ayırıb. Pakistan hökuməti isə Makran sahilindəki bu yeni limanı Karaçi ilə yeni magistral yollarla birləşdirməyi planlaşdırır. Rəsmi Pekin İran və Pakistanla münasibətlərinə əsaslanaraq tərəflər arasında vasitəçiliyini təklif edib. Digər ehtimala görə, Bəlucistan əyalətindən İran və ya Türkmənistandan strateji qaz kəmərləri çəkilərsə, bu bölgə Pakistan üçün problem yarada bilər. Təhlilçilərin fikrincə, Hindistan və Pakistan bazarlarına tədarük olunan qazla bağlı maliyyə mübarizəsi bəlucların beynəlxalq silahlı qruplaşmalarla birləşməsi ilə nəticələnə bilər. Belə vəziyyət isə regionu yeni münaqişə ocağına çevirər.



## SİSTAN VƏ BƏLUCİSTAN GƏRGİNLİYİN ƏSAS QAYNAR NÖQTƏSİ KİMİ

Qeyd etdiyimiz kimi, İran tək Pakistana deyil, İraq və Suriyadakı hədəflərə də hücum edib. İraq və Suriyaya hücumlarda İŞİD və İsrail qüvvələrini vurduğu bildirilib. Hücumlar bu ayın əvvəlində Kirman şəhərində 84 nəfərin ölümünə səbəb olan bombalı hücuma cavab olaraq reallaşdırılıb. Pakistana edilən hücum isə "Ceyş-ül-Ədl" qruplaşmasını zərərsizləşdirmək adı altında həyata keçirib.

Adıçəkilən qruplaşma 10 ildən çoxdur ki, İranın cənub-şərq hissəsinə hücumlar təşkil edir. Sonuncu dəfə 2023-cü ilin dekabr ayında Sistan və Bəlucistanda 11 iranlı polisin ölümünə səbəb olan hücumun təşkilatçısı da həmin qruplaşma olub. Ümumiyyətlə, iki ölkə arasında bu tip gərginliklər vaxtaşırı baş verir. Etnik bəlucların yaşadığı Sistan və Bəlucistan gərginliyin əsas qaynar nöqtəsi hesab edilir. Tərəflər əvvəllər də bənzər problemlərdən dolayı qarşı-qarşıya gəlsə də, regionda genişmiqyaslı müharibə baş verməyib.



İŞ ADAMLARI BƏZİ PREPARATLARIN ÖLKƏYƏ İDXALINDA ARTIQ MARAQLI DEYİLLƏR

# DƏRMAN İDXALIMIZ NİYƏ AZALIB?

Əczaçılıq məhsulları idxalında müşahidə edilən əhəmiyyətli azalma müxtəlif amillərlə əsaslandırılır. Ekspertlərin bir qismi bunu daxili dərman istehsalının artması ilə bağlayırsa, digərləri başqa sahələrdə qeydə alınan bahalaşmanın dərman alışına da ciddi təsir etdiyini düşünür.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

2023-cü ildə Azərbaycan 560,837 milyon ABŞ dolları dəyərində əczaçılıq məhsulları idxal edib. Dövlət Gömrük Komitəsinin açıqlamasında qeyd olunub ki, bu, 2022-ci illə müqayisədə 14,1 faiz azdır. Statistikadan məlum olur ki, xaricdən dərman gətirilməsi cari illə müqayisədə azalıb. Maraqlıdır, virusların yayıldığı, qızılca, qriplə mübarizə apardığımız dövrdə dərman idxalının azalmasının səbəbi nədir? Dərmanlara ehtiyac əvvəlki kimi deyil, yoxsa daxili istehsalımız artıb?

**YERLİ İSTEHSALDA ARTIM OLDUQCA...**

Milli Məclisin Səhiyyə komitəsinin üzvü, deputat Müşfiq Məmmədli "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, idxalın azalmasının səbəbi yerli istehsalda artımın olması ilə əlaqəlidir: "Yerli istehsalda artım olduqca, xüsusilə də, Pirallahı Sənaye Parkında, gələcəkdə Ələtdə dərman istehsalı ilə bağlı proseslər sürətləndikcə, biz idxalın azalmasını müşahidə edəcəyik. Həm də biz hazırda dərman preparatlarından daha effektiv istifadəni görürük. Təbii ki, burada iqtisadi amillərin nəzərə alınması, xəstəxanaların optimillaşdırılması, Səhiyyə Nazirliyinin ciddi nəzarət mexanizmlərini artıq tətbiq etməyə başlamasının rolu var. Elektron reseptin tətbiqi, dərmanların yazılışına, xəstələrin bundan istifadəsinə ciddi nəzarət və məsuliyyətli yanaşmanı meydana gətirir. Bu, müsbət addımdır və idxalın azalmasına təsir edir".

**İNSANLARIN XƏSTƏLİKLƏ MÜBARİZƏSİ İLBƏİL ARTIR**

Azərbaycan Əczaçı Sahibkarlar Assosiasiyasının sədri Azər Xudiyev bildirdi ki, dərman idxalının azalmasının əsas səbəbi pandemiyanı geridə qoymağımızdır: "İdxalın azalmasını xəstəliyin az olması ilə əlaqələndirənlər var. Əslində, insanların xəstəliklə mübarizəsi nəinki azalıb, əksinə, ilbəil artır. Xəstəliklər çoxaldıqca, insanlar müasir viruslarla mübarizə aparmaq məcburiyyətində qalırlar. Müasir xəstəliklər üçün də yeni çıxan dərmanlar istehlak edilir. Yəni hazırkı xəstəliklərin idxalın azalmasına təsiri yoxdur. İdxalı azaldan əsas səbəb COVID-19 virusunu geridə qoymağımızdır. İnsanlar bu dövrdə kifayət qədər çox dərman qəbul edirdilər".

Mütəxəssisin sözlərinə görə, 2022-ci ildə lazım olduğundan daha çox, ehtiyat məqsədilə, antibiotiklər, virus əleyhinə dərmanlar idxal edildi: "Pandemiya dövründə bu dərmanlardan həddsiz çox istifadə olunurdu. Bu, tək Azərbaycanda deyil, bütün dünyada belə idi. 2022-ci il COVID-19-un sonu olsa da, ehtiyat dərmanlar sahibkarları ziyana saldı. Pandemiya bitdi, ehtiyat məqsədilə gətirilən dərmanların vaxtı keçdiyi üçün utilizasiya edildilər. Bu normaldır, təki insanlar xəstələnməsin, dərmanlar utilizasiya olunsa da olar. Amma o dövrlərdə idxal həddindən çox idi".

**2023-CÜ İL ƏCZAÇILIQ MƏHSULLARI**

**İDXAL 560,837 mln.dollar**



**İXRAC 14,706 mln.dollar**

## TƏLƏBAT ÇOX, İMKANLAR AZDIR

Həmsöhbətimiz vurğulayır ki, dərman idxalının azalmasının ikinci səbəbi bazardakı bahalaşmadır: "2023-cü ildə idxalın azalmasının əsas səbəblərindən biri də digər sahələrdə müşahidə etdiyimiz bahalaşmadır. Vəziyyət elədir ki, insanlar ya ərzaq almalıdırlar, ya da dərman. Azərbaycan vətəndaşı gündəlik tələbatını təmin etməyə çalışır. Yəni qiymətlərin baha olması dərmanların alış tələbatını azaldıb. Hazırkı xəstəliklərlə mübarizədə dərmanlara tələbat çoxdur, amma imkanlar azdır". A.Xudiyev sonda vurğuladı ki, 2024-cü ildə tibbi xidmət və dərman təchizatı ilə bağlı müjdələr olacaq: "Şəkər, kardioloji və xroniki xəstəliklərin dərmanları pulsuz veriləcək. Bununla bağlı layihə hazırlanır. Bu, çox təqdirəlayiq bir hadisədir, sosial dövlətin təməli budur. Getdikcə digər xəstəliklər üçün də dərmanlar pulsuz veriləcək".




Müşfiq Məmmədli

Foto: Rüfət Mikayılov/Global Media Group



Azər Xudiyev

## Xaricdən dərman gətirmək sahibkarlara sərf etmir

Sosial məsələlər üzrə ekspert İlqar Hüseynli deyir ki, bu gün Azərbaycan dərman bazarında dərman preparatlarının azlığı müşahidə olunur. Mütəxəssisin sözlərinə görə, xaricdən dərman gətirmək sahibkarlara sərf etmir: "Kimyəvi tərkibli dərman preparatlarının qiyməti çox bahadır. Həm idxal prosesinin çətinliyi, həm də qiymətin baha olması sahibkarda maraq oyatmır. Üstəlik, dərman vasitələrinin dövlət qeydiyyatının müddəti beş ildir. Qeydiyyat prosedurunda da sahibkarlar bürokratik əngəllərlə üzləşirlər. Buna görə də iş adamları müəyyən sayda dərman preparatlarının ölkəyə idxalında artıq maraqlı deyillər".

**DAXİLİ İSTEHSAL İSTƏNİLƏN SƏVİYYƏDƏ DEYİL**

Mütəxəssis bildirir ki, sahibkarlar daha çox asan yola baş vururlar və bioloji aktiv əlavələrin satışına, onların biznesinə sürətlə keçid edirlər: "Çünki onların idxal prosesi də rahatdır, qiymətləri də digərlərinə nisbətən ucuzdur. Düşünürəm ki, idxalda yaranan fərq məhz bununla bağlı ola bilər".

Azərbaycanda dərman istehsalının artmasına gəldikdə isə, İlqar Hüseynli vurğulayır ki, hələlik bazarda ciddi istehsal imkanlarını qura bilməmişik: "Buna görə də yerli istehsal tələbatın ödənilməsinin müəyyən hissəsini üzərinə götürə bilmir. 14 faiz azalmanın daxili istehsalla bağlı olması mümkün deyil".

Azər Xudiyev də ölkədə dərman sahəsində daxili istehsalın hələ istənilən səviyyədə olmadığını bildirir: "Ehtimallar və gözləntilər böyükdür. Zavodların təməli qoyulub, amma hələ istehsal istənilən səviyyədə deyil".

Yeri gəlmişkən, Dövlət Gömrük Komitəsinin məlumatında qeyd olunub ki, hesabat dövründə Azərbaycanın əczaçılıq məhsulları ixracının dəyəri 14,706 milyon ABŞ dolları olub. Bu isə 1 il əvvələ nisbətən 6,4 dəfə çoxdur. Yəni cari illə müqayisədə ixrac çoxalıb, idxal azalıb.

PUL NİŞANLARININ DƏYİŞDİRİLMƏSİ VƏ EKSPERTİZASI QAYDALARINDA YENİLİK

# ZƏDƏLİ VƏ LƏKƏLİ PULLARIMIZI NECƏ DƏYİŞƏK?



Qanunvericilikdə cırıq, zədəli və ləkəli şəkildə olan pul nişanlarının tədavülü ilə bağlı tələblər mövcuddur. Qəbul edilən son dəyişikliyə əsasən, Azərbaycanda kağız pul nişanlarının yararsız hesab olunması üçün müəyyənləşdirilmiş kriteriyalardan beş faizə qədər kənarlaşma olduqda nişan yararsız hesab edilir.



İLHAMƏ ƏBÜLFƏT

Azərbaycan Mərkəzi Bankının (AMB) Kollegiyası "Pul nişanlarının tədavülə yararsızlıq əlamətləri, dəyişdirilməsi və ekspertizası Qaydaları"nda dəyişiklik edib. Bununla bağlı AMB-nin sədri Taleh Kazımov yeni qərar imzalayıb. Qərara əsasən, Azərbaycanda kağız pul nişanlarının yararsız hesab olunması üçün müəyyənləşdirilmiş kriteriyalardan beş faizə qədər kənarlaşma olduqda nişan yararsız hesab ediləcək. İndiyə qədər bu halda nişan tədavülə yararlı hesab olunurdu. Eyni zamanda, ön və yaxud arxa tərəfində kimyəvi təsir nəticəsində rəngini dəyişmiş, çirklənmiş və ya korroziyaya məruz qalmış, eləcə də fiziki deformasiyaya uğramış (əzilmə, deşilmə və s.), hissələrə ayrılmış və ya hər hansı bir hissəsi itirilmiş və yanmış, cilalanmış, hansısa kənar təsir nəticəsində vizual görünüşünü itirmiş, lakin nominalı aydın görünən metal pul nişanları da yararsız hesab ediləcək. Təbii ki, bir çox şəxslərdə zədələnmiş, cırılmış pullar olur. Bəzən cırılan pulun bir hissəsi də itir.

Bəs zədələnmiş pullarımızı necə dəyişək?

### ZƏDƏLİ PULLAR, BEŞ FAİZ KRİTERİYA...

Hüquqşünas Nicat Ələkbərzadə "Kaspi" qəzetinə açıqlamasında bildirib ki, pul əsginasları tez-tez kənar təsirlərə məruz qalaraq istifadəyə yararsız hala düşürlər, bəzi hallarda isə zədənin təsirindən rəqəmlər belə oxunmur: "Qanunvericilikdə cırıq, zədəli və ləkəli şəkildə olan pul nişanlarının tədavülü ilə bağlı tələblər mövcuddur. Qəbul edilən son dəyişikliyə əsasən, Azərbaycanda kağız pul nişanlarının yararsız hesab olunması üçün müəyyənləşdirilmiş kriteriyalardan beş faizə qədər kənarlaşma olduqda nişan yararsız hesab ediləcək. İndiyə qədər bu halda nişan tədavülə yararlı hesab olunurdu.


Nicat Ələkbərzadə

Mövcud qanunvericiliyə əsasən, yararsız milli pul nişanları dəyişdirilməsi üçün banklara və ya Mərkəzi Banka təqdim edilə bilər. Pulların dəyişdirilməsi onların həqiqiliyinin və nominal dəyərinin ödənilməsi yoxlanılmaqla həyata keçirilir. Milli pul nişanlarının dəyişdirilməsi əməliyyatları bankların və Mərkəzi Bankın daxili reqlamenti ilə müəyyən edilmiş iş saatlarında həyata keçirilir. Həmin vaxt ərzində dəyişdirilməyən pul nişanları təqdim edən şəxsə qaytarılır".

### KORLANMIŞ PULLA BAĞLI EKSPERT RƏYİ NECƏ VERİLİR?

"Təqdim edilmiş və saxta olmayan, bütöv bir hissədən ibarət səthinin 60%-dən az olmayan hissəsinin və ya eyni pul nişanına məxsus hissələrdən ibarət səthinin 100%-ni saxlamış kağız pul nişanlarının, habelə saxta olmayan, səthini 100% saxlamış, ön, arxa və kənar haşiyəsinin təsvir və yazıları silinmə və ya deformasiyaya uğramamış metal pul nişanlarının nominal dəyəri ödənilir. Bundan əlavə, milli pul nişanlarının saxta olması və ya səthinin 100%-ni saxlamış pul nişanının hissələrinin eyni pul nişanına məxsus olması barədə ekspert rəyi Mərkəzi Bank tərəfindən verilir", - deyə hüquqşünas əlavə edib.



## KÖHNƏ PULLAR VƏ QOYULAN TARİX

N.Ələkbərzadə vurğulayıb ki, Mərkəzi Bank xüsusi qablaşdırma vahidlərində tədavülə yararsız hala düşmüş kağız milli pul nişanlarını ekspertizaya yalnız banklardan qəbul edir: "Köhnə pulları da müraciət əsasında dəyişdirmək mümkündür. Ümumiyyətlə, pullar dövriyyədən tədricən, müəyyən zamanla çıxarılır və ya son dəyişdirmə tarixi qoyulur ki, bu tarixədək dəyişmək mümkün olsun".



Qeyd edək ki, Mərkəzi Bankın Bakı şəhərində "Nağd pul ofisi" çərşənbə axşamı, çərşənbə və cümə axşamı günləri saat 10:00-dan 13:00-dək fəaliyyət göstərir.

### 60 FAİZ TƏLƏBİ

İqtisadçı ekspert Eldəniz Əmirovun sözlərinə görə, zədələnmiş pulların dəyişdirilməsi üçün müəyyən tələblər var. Əgər bu şərtlər pozulmayıbsa əsginasları asanlıqla dəyişmək olar: "Həmin tələblərdən əsas biri pulun səthinin 60 faizinin sağlam olmasıdır. Eyni zamanda, üzərindəki seriyalardan biri oxunursa, pullar dəyişdirilir. Burada 60 faiz mütləqdir. Çünki şərtdə 60 faiz həddinin müəyyənləşdirilməsinin




səbəbi var. Əgər 50, 40, 30 və daha aşağı rəqəmlər olarsa, o zaman vətəndaş digər zədəli qalan parça ilə ikinci dəfə eyni məbləği ala bilər. 60 faiz ilə verilmə avtomatik olaraq 40 faizin istifadəyə yararsız olması deməkdir. Bu proses Mərkəzi Bankın "Nağd pul ofisi"ndə reallaşır. Bölgələrdə də bu ofislər fəaliyyət göstərir".

Ekspert pulun 60 faizinin nəyə əsasən hesablablanmasına da aydınlıq gətirib: "200 damadan ibarət bir ölçü vahidi var ki, onun üzərinə pulu yerləşdirərək neçə faizinin zədəli olub-olmamasını bilmək olur".

### BƏS DİGƏR BANKLAR?

Bəs digər kommersiya bankları zədələnmiş pulları dəyişə bilərmi? Ekspert deyir ki, bank bunu dəyişə də, dəyişməyə də bilər: "Çünki kommersiya banklarının belə bir öhdəliyi yoxdur".


Eldəniz Əmirov

AİLƏ Kaspi 27 YANVAR ŞƏNBƏ 2024 9

“AİLƏ” RUBRİKAMIZIN NÖVBƏTİ QONAQLARI HAZIRDA İNGİLTƏRƏDƏ YAŞAYAN İNGİLİS TOMAS VƏ AZƏRBAYCANLI RÖYALƏDİR

# AZƏRBAYCANLI QIZLA İNGİLİS OĞLANIN XOŞBƏXT AİLƏSİ





SÖHBƏTLƏŞDİ
Zərif Salmanlı
zarifsalmanli@kaspi.az

**Tomas Amiral Moody:** “Buradakı toylara gedəndə aş, kabab axtarıram. Bakıda toylarda süfrə yeməklə dolu olur, insanlar rəqs edir, hamı ən yaxşı paltarını geyinib gəlir. Burada insanlar rəqs etmirlər, yeməklər də çox olmur. Ən yaxşısı Azərbaycan toylarıdır”.

Yəqin ki, çoxumuz sosial şəbəkələrdə Azərbaycan dilində danışan ingilis vətəndaşı və onun azərbaycanlı həyat yoldaşını görmüşük. Bu cütlük - Tomas və Röyalə Amiral Moody ailəsidir. Onlar özlərini “Anglobaijani” adlandırırlar. 2011-ci ildən ailəli olan bu cütlüyün Əsgər, Elizabet və Osman adında üç övladı var. Bu ailə sosial şəbəkələrdə Azərbaycan mahnıları ifa etmək, rəqslərimizi oynamaqla məşhurdur. Tomasın atası Geof da bəzən onlara qoşulur. Beləliklə, “Ailə” rubrikamızın növbəti qonaqları Tomas və Röyalədir.

## “AİLƏM QARŞISINDA EVLİLİK TƏKLİF ETDİM”

Röyalə deyir ki, Tomasla münasibətlərinin başlamasına Azərbaycan səbəb olub: “Mən universiteti bitirdikdən sonra Tomasla eyni şirkətdə işləməyə başladım. Orada tanış olmuşuq. İlk söhbətimiz Tomun Azərbaycan haqqında məlumatlı olması ilə bağlı idi. 12-13 il əvvəl əcnəbilər ölkəmiz haqqında az məlumatlı idi. Amma Tomun məlumatlı olması məndə maraq oyatmışdı. Tomun anası da həmin şirkətdə işləyirdi. Biz özümüz danışdıqdan, dostluğumuz başladıqdan sonra anası ilə də tanış oldum. Gördüm ki, yaxşı insanlardır və bundan sonra münasibətlərimiz daha da ciddiləşdi”.

Tomas isə Röyaləni görən kimi ona aşiq olub: “Çox gözəl idi. Tanış olanda gördüm sevgi dolu, çox mehriban insandır. O vaxta qədər gördüyüm ən gözəl insan ola bilər. Hələ də elədir”.



Tomasın sözlərinə görə, valideynləri Röyaləni iş yerində görmüşdülər deyə, hansısa problem yaratmayıblar: ”Anam və atamla dostlaşmışdı. Biz “Avroviziya” müsabiqəsinə baxırdıq, oradan Azərbaycan haqqında eşitmişdik. Anama da Azərbaycan haqqında danışmışdı. Evlənmə təklifini də anam və atamın qarşısında etmək istədim. Amma bilirdim ki, Azərbaycanda qadınlara evlilik təklifi etməzdən əvvəl gərək onların böyüklərindən razılıq alasan. “Skype” vasitəsilə qardaşına zəng etdim, ondan soruşdum. O razılıq verəndən sonra anam, atam və qardaşımın qarşısında nənəmdən qalma üzük ilə evlilik təklif etdim”.

## “DÜŞÜNDÜM Kİ, YƏQİN ZARAFAT EDİR”

Röyalə üçün isə hər şey bu qədər asan olmayıb. Deyir ki, Tomas xarici vətəndaş olduğu üçün anası çox narahat olub. Amma tanıdıqdan sonra fikirləri tamamilə dəyişib: “Tom evlilik təklif etməmişdən əvvəl mən ailəmə danışmışdım. Çünki onların razılığı olmadan heç bir ciddi qərar verə bilmərəm. Evdə öncə fikirləşdilər ki, başqa millətin nümayəndəsidir, görəsən necə olar? Amma Tomu tanıyandan sonra hər kəs “mütləq razılaşmalısan” dedi. 2011-ci ildə ailəmi görməyə Bakıya tətilə getmişdim. Tomas mənə yazdı ki, o da gəlmək istəyir. Düşündüm ki, yəqin zarafat edir, viza prosesləri çox uzun çəkər. Bir gün keçəndən sonra vizasının şəklini göndərdi ki, sabah gəlirəm. Səhər gəldi və ailəmlə tanış olmaq istədi. İlk görüşdən bir-birilərini çox yaxşı başa düşməsələr də, Tomu çox sevdilər. O vaxtdan anam ona Azərbaycan dilini öyrətməyə başladı, yeməklərimizi sevdirdi. İnsanların mehriban olmağını görüb Tom da sevdi. Sonra Tomun ailəsi ilə bacılarım, qardaşım tanış oldu. Qardaşımdan sonra anam İngiltərəyə gəldi. Anam da onun anasını, atasını çox sevdi. Görən kimi “çox gözəl ailədirlər”, - dedi”.

> “Röyalə Amiral Moody: “Evimizdə çox vaxt Azərbaycan yeməkləri bişir. Çünki anam hər dəfə gələndə Azərbaycan yeməklərini öyrətdiyinə görə, o gedəndən sonra da elə davam edirik.”

## TOMAS: “ƏN YAXŞISI AZƏRBAYCAN TOYLARIDIR”

Tomas deyir ki, öz toylarına qədər Azərbaycan toyları haqqında məlumatı olmayıb: “Amma indi buradakı toylara gedəndə aş, kabab axtarıram (gülür). Bakıda toylarda süfrə yeməklə dolu olur, insanlar rəqs edir, hamı ən yaxşı paltarını geyinib gəlir. Burada insanlar rəqs etmirlər, yeməklər də çox olmur. Ən yaxşısı Azərbaycan toylarıdır”.

Cütlüyün toylarındakı rəqsi də gündəm olmuşdu. Röyalə deyir ki, Tomas rəqslərimizi çox sevir: “Tom rəqslərimizi toy videolarımızdan baxıb öyrənirdi. Toyumuza qədər həyəcandan rəqsimizi unutmuşdum, heç oynamağı düşünməmişdik. Əvvəldən də hazırlaşmamışdıq. Toyda Tom özü oynamağa başladı. Bir də baxdım ki, Azərbaycan rəqsi oynayır. Hətta Tomun atası və anası da Azərbaycan rəqsi oynamağa başladı. Hamısı necə oynamaq lazımdır bilirmiş”...

## “AZƏRBAYCAN MƏNİM ÜÇÜN ÇOX DOĞMADIR”

Bəzən insanlar yazırlar ki, yəqin həyat yoldaşı Azərbaycanı sevməyə məcbur edib. Amma Tomasın sözlərinə görə, o özü Azərbaycanı tanıdıqca çox sevib: “Azərbaycanın insanları çox mehriban, qonaqpərvər, çalışqandırlar. Azərbaycan mənim üçün çox doğmadır. Oraya gedəndə özümü çox rahat hiss edirəm. Hamı istəyir ki, kömək etsin. İnternetdə “başqa millətsənsə Azərbaycanda ehtiyatlı olmaq lazımdır” yazılır. Azərbaycana gedəndə isə gördüm ki, bunlar heç biri düzgün deyil. Azərbaycan dünyada ən təhlükəsiz ölkələrdən biridir”.

## “TƏTİLDƏ AZƏRBAYCANA GEDİN” DEYİR

Röyalə də deyir ki, Toma Azərbaycan haqqında xüsusi məlumatlar verməyib: “İstədim özü araşdırsın. Hər dəfə Azərbaycana gedəndə rayonlarımıza apardım. Qohumlarımıza qonaq getdik. Toyumuzdan sonra bal ayına Qəbələyə getdik, bir həftə orada qaldıq. Naxçıvan, Şuşa, Şəki, Lənkəran, Zaqatala, Xaçmaz, İsmayıllıda olmuşuq. Getdiyimiz hər yerdə insanların mehriban olmağına görə, Azərbaycanı sevməyə başladı. Burada insanlar da ölkəmiz haqqında soruşanda deyir ki, Azərbaycan rahat və təhlükəsiz ölkədir. Tətilə başqa ölkələrə yox, Azərbaycana gedin”.

## “ŞUŞANIN QƏLBİMİZDƏ XÜSUSİ YERİ VAR”

Tomas bütün rayonlarımızı bəyənir: “Hər rayonun öz gözəlliyi var. Şəki, Lənkəranın dağları çox gözəldir. Şəkini çox sevirəm. Naxçıvan isə mənim üçün xüsusidir. Çünki Röyalə orada böyüyüb. Məni oxuduğu məktəbə apardı, uşaqlıqda oynadığı məhəlləni, yaşadığı binanı göstərdi. Bir də Şuşaya gedəndə hisslərim tam başqa oldu. Hər küçədə qürur hissi ilə keçirdim. Çünki hər küçədə şəhidləri xatırlamamaq mümkün deyil. Şuşanın qəlbimizdə xüsusi yeri var”.

## BAYRAĞIMIZI QOLUNA TATU ETDİRƏN İNGİLİS

Cütlüyün rayonlarımıza səfərləri zamanı maraqlı hadisələr də yaşanıb. Röyalə deyir ki, hər dəfə başqa rayona gedəndə yol kənarında müxtəlif məhsullar satan insanlarla tanış olublar: “Tomas hər dəfə yeni bir insanla tanış olurdu. İnsanların hörmətinə, “bu da bizdən pay olsun” deməyinə şok olmuşdu. Başqa ölkədən gəldiyinə görə elə düşünürdü ki, şəhərdən kənara çıxanda özünü narahat hiss edər. Amma gördü ki, rayonlardakı adamlar daha mehribandırlar. Balaca da olsa hədiyyə verməyə cəhd göstərirlər ki, Azərbaycandan xoş təəssüratla qayıtsın. Bundan sonra ölkəmizi o qədər sevib ki, hətta qoluna bayrağımızı tatu da etdirib”.

Azərbaycan dilində bəzi vətəndaşlarımızdan daha yaxşı danışan Tomas bildirir ki, dilimizi sevir və öyrənmək istəyir: “Hər həftə dil öyrənməyə vaxt ayırırıq. Burada türk supermarketi, ya da restoranı görən kimi orada Azərbaycan dilində danışmağa, əlaqə qurmağa çalışıram”.

## “MƏN ONA “TOMUN QURBAN”, O DA MƏNƏ “MAMAN QURBAN” DEYİR”

Röyalə sosial şəbəkələrdə məşhur olan Geof babadan da danışdı: “Uşaqlar hər iki dili də eşidirlər. Dilimizdə danışmağa çalışırlar, amma hələ ki, qısa cümlələr qururlar. Qarabağ məktəbində Azərbaycan dilində təhsil alırlar. Evdə Tomasla daha çox Azərbaycan dilində danışmağa çalışırıq ki, həm uşaqlar, həm o, həm də anası və atası öyrənsin. Qayınatamda Azərbaycana, dilimizə maraq əvvəl də var idi. Amma bir yerdə yaşamağa başlayandan sonra bir gün dedi ki, mən də öyrənmək istəyirəm. Qızım, oğlum, bir də qayınatam Azərbaycan dili dərslərinə qoşulurlar”.

Tomas deyir ki, Röyalənin anası da möhtəşəm insandır: “Mən ona “Tomun qurban”, o da mənə “maman qurban” deyir. Hər dəfə onu qarşılamağa gedəndə Azərbaycan mahnısını oxuyuram. Mənə rəqs etməyi öyrədir, bir yerdə rəqs edirik”.



## TOMAS: “AZƏRBAYCAN RƏQSLƏRİNİN HAMISI GÖZƏLDİR”

Bu ailənin rəqsləri bütün sosial platformalarda məşhurdur. Yeznənin sözlərinə görə, ən sevdiyi Azərbaycan mahnısı “Sarı gəlin”dir: “Səndən bir dənədir” mahnısını da sevirəm. Murad Arifin mahnılarını xoşlayıram. Evdə bu mahnıları çox tez-tez dinləyirik. “Naz eləmə” rəqsini sevirəm. Ümumiyyətlə, Azərbaycan rəqslərinin hamısı gözəldir. Hər həftəsonu qızımızın rəqslərinə baxmağa gedirəm. Amma kişilərinizin rəqsi çox tez-tezdir. Mən ancaq əl-qol hərəkətlərini edə bilirəm. “Fəryad” filmini çox sevirəm”.

Röyalə deyir filmləri bir yerdə izləyirlər: “Qayınatam daha çox maraq göstərir. “Qatarda” tamaşasına, “Ulduz”, “O olmasın bu olsun” filmlərinə baxıb. “Arşın mal alan”ı da çox sevir. Bir də “Qaynana” filmini izləmişik. Qayınatam oradan mənə xüsusi bir mahnı hazırlamışdı. Qayınatam musiqiçilərdən Sami Yusifi, bir də Yaqub Zurufçunu dinləyir. Onun “Ayrılıq” mahnısını sevir, hətta oxuyur. Demək olar hər ay yeni mahnı öyrənirik”.

## “SOUZ, PİTİ BİŞİRİRƏM, KABAB DA ÇƏKİRƏM”

Tomas deyir ki, Azərbaycan yeməkləri adət etdiyi yeməklərdən çox fərqlidir: “Amma çox sevdim. Röyalənin anası ilk dəfə dolma və souz bişirmişdi. Ən sevdiyim pomidor, badımcan, bibər dolmasıdır. Anlaya bilmədiyim hər yeməyin yanında turşu olmasıdır. Niyə yediyinizi başa düşə bilmirəm. Oğullarımız da sevmir. Amma qızımız turşu və zeytun xoşlayır. Hətta atam da yeməkləri turşu ilə yeyir. Bir də başa düşmədiyim hər şeyi qatıqla yeməyinizdir. Röyalənin anası yeməklərinizi bişirməyi öyrədir. Souz və piti bişirməyə çalışıram. Bozbaş da bişirirəm. Hətta kabab da çəkirəm”.

## “TOMUN ATASI VƏ ANASINI DA ÇAYXOR ETMİŞİK”

Röyalənin sözlərinə görə, Tom Azərbaycan çayını və limonumuzu da çox sevir: “Azərbaycanda görür ki, çayın içinə qəndi salıb, elə içirlər. Bu hərəkət ona maraqlı gəlmişdi və araşdırmışdı ki, görəsən niyə belə edirlər. Qədim adət olduğunu öyrənmişdi. İndi o da belə etməyi çox sevir. Bakıya gələndə Azərbaycan-dan çay, qənd, limon gətiririk. Tomun atası və anasını da çayxor etmişik”.

Sən demə, azər-baycanlı-ların və ingilislərin ortaq düşüncələri də var imiş: “Toma ən maraqlı gələn inanclarımızdır. Məsələn, gedənin arxasınca su tökməyi, çəngəl-bıçaq yerə düşəndə onu qonaq gəlməyilə bağlamağımızı öyrənib. Ən sevdiyi əlin içi qaşındıqda alnına qoymaq və pul gəlməyini gözləməkdir. Anamdan üzərlik yandırmağı da öyrənib. Sonradan bilib ki, ingilislərdə də belə adətlər var imiş. Burada da nəyinsə altından keçməmək, qara pişik gördükdə tüpürmək kimi inanclar mövcuddur”.

## “KÜSÜLÜ QALA BİLMİRİK”

Röyalə deyir ki, elə fikir ayrılıqları da buna görə olur: “Mən daha sərtəm deyə, uşaqların dərslərində daha uğurlu olmalarına çalışıram. Amma Tom düşünür ki, həyat qısadır, necə istəyirlər, elə də etsinlər. Uşaqlara qarşı sərt ola bilmir. Mübahisə etsək də, Tom küsməyi sevmir, üstündən tez keçməyi bacarır. Mən bir az küsülü qala bilirəm. O zaman da ilk addımı həmişə Tom atır. Küsülü olanda mənim qəlbimi qazanmağı yaxşı bacarır. Bilir ki, Azərbaycan dilində mahnı oxusa, gül alsa, sevinəcəyəm, kefim açılacaq. Beləliklə, küsülü qala bilmirik”.

## AMİRAL MOODY AİLƏSİNDƏN CÜTLÜKLƏRƏ MƏSLƏHƏT

Son olaraq Amiral Moody ailəsi cütlüklərə məsləhətlərini də verdi.

Tomas: “Həyat yoldaşınızla hər zaman razılaşın. Çünki o həmişə ən düzünü deyir. Xoşbəxt həyat yoldaşı, xoşbəxt həyat deməkdir”.

Röyalənin fikrincə isə, əsas məsələ hörmətdir: “Həm özünüzə, həm də bir-birinizə, valideynlərinizə hörmət edin”.

# ARTIQ AVTOBUSLAR DAHA TEZ GƏLİR

Bakı şəhəri və Abşeron rayonunun küçə və prospektlərində 21 avtobus zolağı mövcuddur. Həmin zolaqlar nəticəsində intervallardakı azalmaları artıq hiss edə bilirik.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

İctimai nəqliyyatın əsas özəyindən biri də şəhərdaxili marşrutlardır. Hansı ki, gün ərzində minlərlə insan bu marşrutlarla şəhərin müxtəlif istiqamətləri üzrə hərəkət edir. Əhalinin gedəcəyi yerlərə daha rahat və tez çatması üçün mütəmadi işlər görülür. Bu tədbirlər sırasında avtobus zolaqlarının yaradılması xüsusi qeyd edilməlidir. Avtobus zolaqlarının salınmasındakı məqsəd insanları ictimai nəqliyyata cəlb etmək və insanların gedəcəkləri yerə günün pik saatlarında tıxacda qalmadan daha rahat çatdırmalarını təmin etməkdir. Bəs görəsən, avtobus zolaqları marşrutların intervalının azalmasına, daha tez dayanacağa çatmasına fayda verə bilirmi?

**AVTOBUS ZOLAĞI DAHA ÇOX SƏRNİŞİNİN DAŞINMASINA İMKAN YARADIR**

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) sorğumuza cavab olaraq bildirilib ki, avtobusla sərnişin daşımaları şəhərdə mobilliyin təmin edilməsi baxımından böyük əhəmiyyətə malikdir: "İctimai nəqliyyat hərəkət cədvəlinə uyğun fəaliyyət göstərir, onun tıxacda qalması və ləngiməsi bütün xətt boyunca intervalların pozulmasına gətirib çıxarır. Qeyd edək ki, avtobus üstünlüyünün təmin edilməsi məhz tıxac olan küçələrdə lazımdır. Eyni zamanda, avtobus üstünlüyünün təmin edilməsi daşınan əhali sayını da artırır. Xüsusi avtobus zolağı isə daha çox sərnişinin daşınmasına imkan yaradır".

**25-30 DƏQİQƏ TEZ ÇATIRLAR**

Məlumata görə, hazırda Bakı şəhəri və Abşeron rayonunun küçə və prospektlərində 21 avtobus zolağı mövcuddur: "Yolların buraxılış imkanlarının artırılması üçün AYNA tərəfindən Bakı-Sumqayıt şosesində Xırdalan dairəsindən Bakı Beynəlxalq Avtovağzal Kompleksinə kimi və əks istiqamətdə avtobus zolaqları təşkil edilib. Qeyd olunan yol sahəsindən gün ərzində ümumilikdə 37 müntəzəm marşrut xətti üzrə 1800 dəfədən çox avtobus keçir. Zolağın tələbinə əməl etməklə 140 minə yaxın ictimai nəqliyyat istifadəçisinin rahat, maneəsiz və əlavə vaxt itkisinə məruz qalmadan daşınmasına şərait yaradılıb. AYNA tərəfindən aparılan təhlillər onu göstərir ki, Bakı-Sumqayıt yolunda zolağın təşkil edilməsindən sonra avtobusların son dayanacağa çatma müddəti 25-30 dəqiqə aralığında qısalıb".




Aslan Əsədov

## Sosial məsuliyyət və mədəniyyət nümunəsi

Qurumdan sürücülərə avtobus zolaqlarına daxil olmamaq barədə xatırlatma da edilib: "Avtobus zolağına şəxsi nəqliyyat vasitələrinin daxil olması qadağandır. Avtobuslar üçün zolağa daxil olan digər nəqliyyat vasitələrinin sürücüləri 40 manat məbləğində cərimə olunurlar. Qeyd edək ki, zolağın tələblərinə riayət edilməsi cərimədən savayı, həm də sosial məsuliyyət və digər insanlara qarşı mədəniyyət nümunəsidir. Avtobus zolağına daxil olan şəxsi minik avtomobilləri onlarla avtobusun hərəkəti ilə yanaşı minlərlə sərnişinin də vaxtında təyinat yerinə çatmasına maneə yaradır".

Nəqliyyat məsələləri üzrə ekspert Rövşən Həsənovun fikrincə, avtobus zolaqlarına digər sürücülərin daxil olmasının qarşısı alınarsa, interval daha da qısaldıla bilər: "Bir neçə istiqamətdə bu kimi işlər görülüb. Məsələn, Bakı-Sumqayıt yolunda avtobus zolağı ayrılıb. Bu, qismən də olsa marşrutun intensivliyini təmin edə bilər. Amma digər nəqliyyat vasitələrinin zolağa daxil olmasının qarşısının alınması vacibdir".



Rövşən Həsənov

**VƏZİYYƏTİ YAXŞILAŞDIRMAQ MƏQSƏDİLƏ...**

R.Həsənovun sözlərinə görə, avtobusların hərəkətinə mane olan faktorlar çoxdur: "Əfsuslar olsun ki, şəhərin mərkəzində tikinti norma və qaydalarına uyğun olmayan sovet dönəmindən qalma dar yollar mövcuddur. Onlar şəhərin indiki yükünü daşımaq qabiliyyətində deyil. Həmin yolların dəyişdirilməsi, genişləndirilməsi də çox çətin prosesdir. Hətta bəzi ərazilərdə qeyri-mümkündür. Yeni salınan velosiped zolaqları isə əksinə, vəziyyəti daha da çətinləşdirir. İnsanlar arasında da müsbət təsir bağışlamır. Onsuz da bir istiqamətdə mövcud olan iki zolaqlı yollarda günün pik saatlarında intensiv hərəkət nəticəsində sıxlıq və tıxaclar yaşanırdı. Vəziyyəti yaxşılaşdırmaq məqsədilə həmin zolaqlar üzərində velosiped yolu salındı. Amma bu, sıxlığı və tıxacı daha da artıran fakta çevrilə bilər".

## İNTERVALLARDAKI AZALMALARI HİSS EDƏ BİLİRİK

Nəqliyyat eksperti Aslan Əsədovun fikrincə, gələcəkdə bu istiqamətdəki irəliləyişləri daha yaxşı görəcəyik: "İctimai nəqliyyatın təkmilləşdirilməsi həllini tapması gözlənilən başlıca məsələlərdəndir. Avtobus zolaqlarının çəkilməsi bir neçə il öncədən proqnozlaşdırılmış işlər sırasında idi. Bu zolaqların çəkilməsi marşrutların intervalına istər dolayı, istərsə də birbaşa yolla təsir edir. Sadəcə, düyün nöqtələri var ki, oralardan keçdikdə avtobusların hərəkətində müəyyən problemlər yaranır. Amma artıq intervallardakı azalmaları konkret hiss edə bilirik. Əksər marşrutlarda interval müddəti aşağı enib. Görülən işlərin səmərəliliyi artdıqca bunu gələcək zaman kəsiyində daha aydın görmək mümkün olacaq".

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Kubra Məhərrəmova, İlhamə Əbülfət, Aysel Aslan, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 188
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.


Fotolar: Səbinə Şəbiyeva / Global Media Group

# "BAHALAŞMADAN SONRA SATIŞLARIMIZ İKİ DƏFƏ AZALIB"

**Qəssab Səbuhi Hüseynov:** "Əvvəl ən azı 3-4 kiloqram ət alardılar. Bir çox hallarda 7-10 kiloqram sifariş edirdilər. İndi isə bir müştəri maksimum 2-3 kiloqram ət alır".




İnflyasiyanın təsir etdiyi sahələrdən biri də ət bazarıdır. Bu tendensiya artan temp üzrə inkişaf etməkdədir. Artıq bazarlarımızda xaricdən gətirilmiş ətlərə daha çox rast gəlirik. Bahalaşmanın ət bazarına necə təsir etdiyini, müştərilərin daha çox yerli, yoxsa xaricdən gətirilən ətə üstünlük verdiklərini öyrənmək üçün bu sahənin peşəkarları ilə söhbətləşdik. Müsahibimiz uzun illərdir peşəkar qəssab fəaliyyəti ilə məşğul olan Səbuhi Hüseynovdur:

**● Səbuhi bəy, müştəriləriniz hansı ətə daha çox üstünlük verirlər?**

● Ən çox tələbat dana ətinədir. Gündə 70 kiloqram dana əti satılırsa, 20 kiloqram quzu əti satılır. Qoyun ətini təsadüfi halda soruşurlar.

**● Bəs bu ətlərin arasında qiymət fərqi necədir?**

● Qiymət ətin keyfiyyətindən asılıdır. Ən yaxşı ət 14-15 manatadır. Bu qiymətdən aşağı satılan ətin keyfiyyəti yaxşı olmur. Yerli dana ətinin kiloqramı 14 manat 50 qəpikdir. 14-17 kiloqramlıq quzunun bir kiloqramı 17 manat, 10-12 kiloqramlıq quzunun bir kiloqramı isə 18-20 manatdır. 30-35 kiloqramlıq qoçların ətinin bir kiloqramı isə 13-15 manata təklif olunur.

**● Müştəri qıtlığı yaşamırsız?**

● Gündəlik alver var. Amma həftə sonları insanlar evdə olduğu üçün alıcı daha çox olur.

**10 KİLOQRAMDAN 2 KİLOQRAMA...**

**● Müştərilər indi neçə kiloqram ət alırlar?**

● Əvvəl ən azı 3-4 kiloqram alardılar. Bir çox hallarda 7-10 kiloqram sifariş edirdilər. İndi isə bir müştəri maksimum 2-3 kiloqram ət alır.

**● Mövcud vəziyyət gündəlik ət satışınıza necə təsir göstərib?**

● Satışlarımız iki dəfə azalıb. Bahalaşmadan öncə həftə içi hər gün 140-150 kiloqram ət satılardı. Bu rəqəm həftə sonu 170-200 kiloqrama qədər qalxırdı. İndi gündəlik 70-80 kiloqram ət satırıq. Həftə sonu maksimum 100 kiloqram olur.

**● Bahalaşmadan sonra bir ayda neçə heyvan kəsirsiniz?**

● Əvvəl ayda 25-30 heyvan kəsərdik. İndi isə bu göstərici aylıq 10-12-dir. Alıcılıq qabiliyyəti zəiflədiyi üçün həftədə 3-4 baş heyvan kəsirik.

**"BİR MANAT BELƏ QALMIR"**

**● Hazırkı qazancınız sizi qane edirmi?**

● Əvvəl hər kiloqramdan minimum 3-4 manat qazanc qalırdı. İndi bir manat qaldıqda şükür edirik.

**● Bu dəyişikliklər sizin üçün hansı çətinlikləri yaradıb?**

● İnsanların alıcılıq qabiliyyəti aşağı düşüb, satış zəifləyib. Başqa heç bir çətinliyimiz yoxdur.

**● Qiymət artımına bayramların və ya mövsümlərin təsiri olurmu?**

● Bayramların həmişə ətin qiymətinə təsiri olub. Bu, bayramlara bir həftə qalmış az da olsa, hiss edilir. Mövsüm üzrə bahalaşma əsasən aprel-may aylarına təsadüf edir. Çünki qışda tədbir görülür, yazın sonu isə tədarük bitir, yəni yem, ot azalır. İyun-iyul ayında qiymətlər yenidən sabitləşir.

**● Heyvanı haradan alırsınız?**

● Əsasən Bərdə və Ağcabədidən. Çünki heyvanı rayondan almaq daha sərfəlidir. Rayon heyvanı olmadıqda müştərilər dadından bilir. Rayon heyvanının əti daha dadlı olur. Bakıda heyvanlara çörək kimi qidalar da verilir və nəticədə ətin dadında fərq yaranır.

> *Rayonda heyvan boldur. Azalma çox az hallarda olur. Amma bahalıqdır. Fermalarda 50-100 baş mal saxlayırlar, hər həftə on baş satırlar.*





**● Bazarda heyvan sayında azalma hiss edirsiniz?**

● Rayonda heyvan boldur. Azalma çox az hallarda olur. Amma bahalıqdır. Fermalarda 50-100 baş mal saxlayırlar, hər həftə on baş satırlar. Azalma əsasən iyun-iyul aylarına təsadüf edir. Sentyabr ayında digər heyvanlar yetişəndə satışa çıxarırlar. O zaman yenidən bolluq olur. Amma bu, qiymətə təsir etmir.

**ƏTİN BAKIYA GƏLİŞİ 30-40 MANATDIR**

**● Rayon bazarında müşahidə etdiyiniz dəyişikliklər varmı?**

● Əvvəl alqı-satqı zamanı çəki gözəyarı olurdu. Yəni təxmini 100 kiloqramlıq dana alırdıq, gətirib çəkəndə 110-115 kiloqram olurdu. Amma indi hamı tərəzilərlə heyvanın çəkisini bilir. Artıq dəqiq çəkisinə görə qiymət qoyurlar. Məsələn 100 kiloqramlıq dana 1300 manatdırsa, 13 manatdan almış oluruq. Bakıya gəlməyi 30-40 manatdır. Qiymət avtomatik 13 manat 50 qəpik olur. Üzərinə də 1 manat qoyub 14 manat 50 qəpiyə satırıq. Rayonlarda ət Bakıdan 1 manat ucuzdur.

**● Xaricdən də ölkəmizə ət gətirilir...**

● Xaricdən ət gətirilməsi həmişə olub. Sadəcə mövsümi xarakter daşıyır. Bizə ət əsasən Rusiya və Belarusdan gəlir. Əvvəllər Ukraynadan da çox gətirilirdi. Amma müharibəyə görə indi demək olar ki, yoxdur. Qazaxıstandan qoyunlar gəlir. Monqolustandan ucuz qiymətə kəsilmiş ətlər gəlir. 13 manat -13 manat 50 qəpikdən təklif edirlər. Satışı isə 17 manatdır.

## KƏNDLİ VƏ FERMER ƏZİYYƏT ÇƏKİR



**● Xaricdən ət gətirilməsinin yerli ətin qiymətinə təsiri varmı?**

● Cüzi də olsa təsir edir. Məsələn, 15 manata satırdıq. Amma indi müəyyən yerlərdə 14 manat -14 manat 50 qəpikdir. Bu ətlər daha çox bazarlarda olur. Oralarda satılan ətlərin 90 faizi xarici ətlərdir. Bazarlarda qiyməti 7-9 manat arasındadır. Xaricdən gətirilən ətlərdən restoranlar da istifadə edir. Amma qəssabxanalarda o qədər də satılmır.

**● Necə düşünürsünüz, xaricdən ət gətirilməsi bazardakı problemləri həll edə bilərmi?**

● Xaricdən ət gətirilməsi bazarda qiymətləri ucuzlaşdırsa da, kənd təsərrüfatımıza ziyanı vurur. Çünki kəndlimiz heyvanı yemlə saxlayır. Yem də bahadır, kəndlinin xərcini ödəmir. Bu hal rayondakı sahibkarlara çox mənfi təsir edir. Bir çox fermerlər təsərrüfatlarını ləğv ediblər.

**● Bundan sonra ətin qiymətində azalma və ya stabilləşmə görə bilərik?**

● Ətin bundan sonra ucuzlaşması mümkün deyil. Bu gedişlə qiymət daha da artacaq.

# “YER ÜZÜNDƏKİ CƏNNƏT”DƏN REPORTAJ

Kapri - füsunkar mənzərələri ilə tanınan kiçik bir adadır. Vulkan püskürməsindən sonra yaranıb. Sahilləri mağaralar və kiçik italyan kəndləri ilə doludur. Bütün həyətlər limon, zeytun və üzüm bağları ilə əhatə olunub. Ada əfsanələrlə zəngindir.





TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Kapri adasını çox vaxt “Aralıq dənizinin incisi” adlandırırlar. “Yer üzündəki cənnət” deyənlər də var adaya. İtaliyanın Neapol, Solerno və ya Sorrento şəhərlərinə səfər edən hər turist şübhəsiz ki, bu möcüzələr adasını ziyarət etməyə can atır.

Kapri - füsunkar mənzərələri ilə tanınan kiçik bir adadır. Vulkan püskürməsindən sonra yaranıb. Sahilləri mağaralar və kiçik italyan kəndləri ilə doludur. Bütün həyətlər limon, zeytun və üzüm bağları ilə əhatə olunub. Ada əfsanələrlə zəngindir.

“Şirin həyat adası” - Roma imperatoru Avqust buranı belə adlandırıb. Homer adanı “çiçəkli diyar” deyə vəsf edib. Bunin eyniadlı hekayəsində Kaprini “Yasəmənlər adası“ adlandırıb. Bayron Kaprini fırtınanın sürdüyü dalğa ilə, qədim romalılar “su pərisi adası” ilə müqayisə ediblər.

## ROMANTİK ƏHVAL-RUHİYYƏ VƏ FOTOKAMERA

Solerno şəhərindən hər gün adaya səyahət edən gəmilər (50 avro) bir saat ərzində sərnişinləri bu cənnət məkana daşıyır. Yol boyu adanın yaşıllıqlarla əhatələnmiş sahilləri və sıldırım qayalıqlar arasında gizlənmiş evlərin damları diqqət çəkir.

Kapri - adanın paytaxtıdır. Adaya çatıb təbiətin qeyri-adi gözəlliyini yaxından izləmək və duymaq üçün yalnız bu bölgəyə məxsus unikal avtobus-taksilərdən və kanat yolu üçün funikulyordan (1.30 avro) istifadə edərək adanın ürəyinə - Anakapriyə qalxmaq lazımdır. “Adada bir günümüz var və hər şeyi görməliyik”, - deyə düşünən turistlər hər dəqiqələrini dəyərləndirməyə çalışırlar. Turistlər fəsildən və havadan asılı olmayaraq özləri ilə romantik əhval-ruhiyyə və fotokamera götürüb Anakapriyə qalxır və “Marina Grande” limanının heyrətamiz mənzərəsini seyr edirlər. Rəngli evlər, Tirren dənizinin zümrüd suları, vəhşi təbiətin qayalar boyunca uzanıb gedən nağıl mənzərələri, unikal sakitlik insanı az qala ovsunlayır.

## MİLYONÇULARIN TƏTİL YERİ

Bəs hansı istiqamətə getməli? İnsanlar xaotik, və turist izdihamı ilə hərəkət edirlər. Biz də axına qoşuluruq...

Dar küçələrdə bizi brend butiklərin sonsuz axını qarşılayır. Vitrinlərin dəbdəbəsindən gözlər qamaşır... Amma butiklərdə izdiham gözə dəymir, qiymətlər bahadır. Məsələn, qadınlar üçün kətan paltarın qiyməti 180, dəri çanta 300 avrodan başlayır. “Bizim üçün deyil”, - deyə biz də bir çox turistlər kimi “vitrin alveri” ilə kifayətlənirik. Bahalı dükanlardakı geyimlərlə, restoranlardakı qiymətlərlə tanış olduqca, qayalar üzərində yerləşən unikal malikanələri seyr etdikcə Kaprinin milyonçuların tətil yeri olduğunu anlamaq çətin deyil. Ona görə sadə turistlər yalnız adanın zeytun yağını, pendirini, şərabını almaqla kifayətlənirlər. Suvenir dükanlarında da bahalıqdır. Məsələn, “Limoncella” içkisi İtaliyanın digər şəhərləri ilə müqayisədə burada daha baha satılır - 45 avro.

Bir-birinə qarışan köhnə yollarla qalxıb Roma villalarının xarabalıqlarını və qorunub saxlanılan arxeoloji əraziləri görmək mümkündür. Turistlər imperator Avqustun sülaləsinin bağlarını gəzməkdən dərin zövq alırlar.

## GÜCLÜ İNSANLARIN ADASI

Kapri adası həmişə gücləri cəlb edib. Vaxtilə bu adada sənətçilər, iş adamları, xəfiyyələr, inqilabçılar, ideyalarına görə təqib olunan insanlar, yazıçılar yaşamağa üstünlük veriblər. İndi o məşhurların villaları özəl ərazilərdir və bəzilərinə giriş pulludur. Rus çarı 1-ci Nikolay, Lenin, Maksim Qorki, İvan Bunin, Konstantin Paustovski, İvan Turgenev, Pyotr İliç Çaykovski, Şalyapin kimi məşhur insanlar bu adada yaşayıblar. Qorki ən məşhur əsərlərini - “Uşaqlıq” hekayəsi, “Ana” romanının bəzi fəsillərini və “İtaliya nağılları”nı bu adada yazıb. Rəvayətə görə, Homerin Odisseyinin gəmisi Kaprinin yanından keçib...

Təkcə ruslar Kaprini sevməyiblər. Başqa ölkələrin zəngin və məşhur adamları da burada həyatdan həzz alıblar: İsveç Kraliçası Viktoriya, Vinston Çörçill, Pablo Nerudo, fransız rejissoru Jan Kokto, isveçəsilli memar Le Korbüzye, Nobel mükafatçısı Henrix və qardaşı Tomas Mann, ünlü italyan yazarı Alberto Moravia, ingilis romançısı Somerset Maugham, Oscar Uayld, diktator Mussolini və dünyanın bir çox güclü insanları həyatlarının müəyyən dövrünü yaşamaq üçün Kaprini seçiblər. İsveç kral ailəsinin həkimi Axel Munte uzun illər ardıcıl olaraq Kapriyə baş çəkib, burada özünün “sehrli qəsrini” yaradıb. Onun yaradılmasının maraqlı tarixi “San Mişel əfsanəsi” adlı kitabında təsvir edilib.

Kapri adası ulu öndər Heydər Əliyevin də marağından kənarda qalmayıb. Ulu öndər İtaliyaya rəsmi səfəri çərçivəsində adaya səfər etmək istəyini bildirib. Orada yerli adət-ənənə ilə tanış olub, italyan toyunda iştirak edib. Ümummilli liderin cənnət adaya səfəri ilə bağlı bu yaxınlarda ekranlara çıxan “Bir səfərin tarixi” adlı filmdə bəhs edilib.





## KAPRİ AHILLARIN ÜMİDİNƏ QALIB

Adada insanlar tələsmirlər. Burada həyat öz sakit axarı ilə gedir. Yerli sakinlər arxayınlıqla evlərinin pəncərələrindən gələn turistləri seyr edirlər. Yerlilər əsasən, italyanların özləridir. Həyat şəraiti bahalı adaya miqrantlar hələ ayaq aça bilməyiblər.

Suvenirlər satılan kiçik dükanda yaşlı italyan kişi bizi mehribanlıqla qarşılayır. Oturmağa stul da təklif edir. Fikirlərini pozuq ingilis dilində izah etməyə çalışır: “Kapridə bir çox dəbdəbəli villalar dünyanın məşhur insanlarına məxsusdur. Onlar qəfildən qarşınıza çıxa bilərlər. İndi dünyanın “ulduzları” gündəlik stressdən uzaq, yerli təbiətin, tarixin və incəsənətin gözəlliklərini kəşf etmək üçün adaya istirahətə gəlirlər. Bir çox əsrlər əvvəl olduğu kimi, Kapridə evlərə yenə də yüksək tələbat var. Adada öz iqamətgahının olması prestijlidir”, - deyə məlumat verir. Yaşlı italyan adada əsasən ahıl insanların yaşadığını deyir: “Gənclər oxumaq və işləmək üçün İtaliyanın digər şəhərlərinə gedirlər. Onlar ənənəvi bağçılıq və təsərrüfatla məşğul olmaq istəmirlər...”

## ÖLMƏZDƏN ƏVVƏL GÖRMƏK ÜÇÜN

Kapridə havanın ani dəyişməsi adi haldır. Günəşli havanı qəfildən güclü yağış əvəzləyir.

Kapridən ayrılırıq... Yaddaşımızda adanın heyrətamiz və unudulmaz mənzərələri qalır. Nə qədər bahalı olsa da, ölməzdən əvvəl bircə dəfə də olsa Kapriyə gəlməyə dəyər...

# SIĞORTA SEKTORU İKİ DƏFƏ BÖYÜYƏCƏK




Ölkədə adambaşına düşən ümumi sığorta haqqının cari 121 manatdan potensial olaraq 195 manata çatdırılması planlaşdırılır. Bundan əlavə, bank sektorunda biznes kreditlərinin məbləğinin 16,5 milyard manata çatdırılması da əsas hədəflərdəndir.

Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyəti “2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası”nı təsdiq edib. AMB-nin məlumatına görə, strategiya ölkəmizdə sığorta, kapital bazarları və ödəniş sektorlarının inkişafı, habelə bank sektorunun dayanıqlığının daha da gücləndirilməsi kimi prioritetləri ehtiva edir. Sənəddə əksini tapan hədəflərə nail olunması ölkədə makroiqtisadi və maliyyə sabitliyinə töhfə verəcək, vətəndaşların güclü və dayanıqlı maliyyə sistemindən faydalanmaq imkanlarını daha da artıracaq.

### SIĞORTAYA OLAN İNAM İNDEKSİ YÜKSƏLDİLƏCƏK

Strategiyada bildirilir ki, Azərbaycanda sığorta sektorunun aktivlərinin cari 1,9 milyard manatdan potensial olaraq 3,7 milyard manata çatdırılması hədəflənir. “Ölkədə könüllü sığorta üzrə sığorta haqlarının cari 350 milyon manatdan potensial olaraq 630 milyon manata, həyat sığortası üzrə sığorta haqlarının isə cari 124 milyon manatdan 280 milyon manata çatdırılması hədəflənir”, - deyə sənəddə qeyd olunub.

Bundan əlavə, ölkədə adambaşına düşən ümumi sığorta haqqının cari 121 manatdan potensial olaraq 195 manata çatdırılması planlaşdırılır: “Strategiyada sürətli inkişaf mərhələsində olan sığorta sektoru üzrə vasitəçi və satış kanallarının (sığorta agentləri və brokerləri daxil olmaqla) genişləndirilməsi, könüllü və icbari sığortanın təşviqi, sığorta məlumat və monitorinq mərkəzinin yaradılması, eləcə də korporativ idarəetmənin gücləndirilməsi və risk əsaslı prudensial tənzimləmənin həyata keçirilməsi məsələləri nəzərdə tutulub. Sığorta sektoru üzrə əsas strateji hədəflər, sığorta təminatını genişləndirmək və istehlakçı hüquqlarını effektiv müdafiə etməklə, sığortaya olan inam indeksinin 66%-dən 80%-ə yüksəldilməsini, sığortaçıların ödəmə qabiliyyətinin artırılmasını əhatə edir. Bu kompleks yanaşma riskləri effektiv idarə etməklə iqtisadi artımı dəstəkləmək məqsədi daşıyır”.

### NAĞDSIZ ƏMƏLİYYAT SAYI İKİ DƏFƏ ARTIRILACAQ

“Azərbaycanda ödəniş sektoru üzrə başlıca strateji hədəf olaraq adambaşına düşən orta illik nağdsız əməliyyat sayının cari 93-dən potensial olaraq 200-ə çatdırılması planlaşdırılır”. AMB sədri Taleh Kazımov strategiyanı şərh edərkən bildirib.

“Ödəniş sektorunda innovativ həllərin tətbiqi ilə yanaşı, ödəniş xidmətlərinə əlçatanlığın artırılması, ödəniş bazarında şəffaflıq və rəqabətliliyin gücləndirilməsi diqqət mərkəzindədir. Ödəniş xidmətləri üzrə təhlükəsizliyin və səmərəliliyin təmin edilməsi məqsədilə milli ödəniş sisteminin müasirləşdirilməsi, bazar iştirakçıları üçün əlverişli mühitin yaradılması və effektiv nəzarət çərçivəsinin formalaşdırılması da nəzərdə tutulur”, - deyə o qeyd edib.

### BİZNES KREDİTLƏRİNİN ÜMUMİ MƏBLƏĞİ İLƏ BAĞLI HƏDƏFLƏR

AMB sədri həmçinin bildirib ki, Azərbaycanın bank sektorunda biznes kreditlərinin məbləğinin 16,5 milyard manata çatdırılması, müvafiq korporativ idarəetmə, şəffaflıq və rəqabət qabiliyyətliliyinin inkişafı və risk əsaslı tənzimləmə və nəzarətin gücləndirilməsi hədəflənir. “Strategiyaya uyğun olaraq bank sektorunda əlverişli və məsuliyyətli bank xidmətlərinin genişləndirilməsi vasitəsilə dayanıqlı inkişafın dəstəklənməsi nəzərdə tutulur. Bu məqsədlə bank sektoru üzrə bazarın genişləndirilməsi, bank olmayan kredit təşkilatlarını inkişaf etdirməklə onların iqtisadiyyatın maliyyələşməsində rolunun yüksəldilməsi, eləcə də nəzarət çərçivəsinin müasirləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi planlaşdırılır”, - deyə o qeyd edib.



## “Azəriqaz” yoxlamalara dair reyestr yaradıb

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) “Azəriqaz” İstehsalat Birliyi yaşayış mənzillərində və sənaye obyektlərində qazdan istifadə qaydalarına riayət olunması ilə bağlı keçirilən yoxlamaların nəticələrinə dair reyestr yaradıb.

“Report”un məlumatına görə, bunu “Azəriqaz”ın Sağlamlıq, əməyin təhlükəsizliyi, ətraf mühitin mühafizəsi və keyfiyyətə nəzarət şöbəsinin rəisi İlkin Behbudov “Açıq qapı” aksiyasında bildirib.

Onun sözlərinə görə, reyestr artıq fəaliyyətdədir: “Azəriqaz”ın respublika üzrə bütün Regional Qaz İstismarı İdarələrinin yazdığı bütün aktlar reyestrə daxil edilir. Oraya daxil edilmiş məlumatların və aktların skan olunmuş variantını “Azəriqaz”ın rəhbər strukturları da ümumi sistemdən görə biləcək”.

İ. Behbudov deyib ki, qanunvericiliyin tələbinə uyğun olaraq reyestr elektron şəbəkəyə inteqrasiya ediləcək: “Hazırda bunun üzərində iş gedir və üzümüzə gələn həftələrdə bu işlərə məsul dövlət qurumları reyestrə çıxış əldə edəcəklər. Hətta, Azərbaycanın ən ucqar kəndində keçirilən müayinənin aktını reyestrdə görmək mümkün olacaq”.

O qeyd edib ki, reyestr ümumrespublika şəbəkəsinə inteqrasiya olunduqdan sonra hər bir abonent oraya daxil olub şəxsi kabinet yaradaraq ona yazılan aktın skan variantı görə biləcək.

“Azəriqaz” rəsmisinin sözlərinə görə, yanvarın 10-dan başlayaraq qurum yaşayış mənzillərində, sənaye obyektlərində qazdan istifadə qaydalarına riayət olunmasını yoxlamaq üçün ölkə üzrə 100 minədək evdə texniki müayinə keçirib: “Bakı şəhəri üzrə keçirilən texniki müayinələrin sayı isə 30 minə yaxınlaşmaqdadır. Bu, çox yüksək göstəricidir”.

## XANKƏNDİ ŞƏHƏRİNDƏ İLK MOBİL OPERATOR MAĞAZASI FƏALİYYƏTƏ BAŞLADI

Azad edilmiş ərazilərin dirçəlişinə dəstək verməyə davam edən Bakcell Xankəndi şəhərində rəsmi diler mağazasını təqdim edən ilk mobil operator oldu. 24 yanvar tarixindən etibarən, Qarabağ universiteti ilə üzbəüz ünvanda yerləşən Bakcell mağazası müştərilərə yüksək sürətli və innovativ rabitə xidmətlərini təqdim edir. Xankəndi şəhərində yeni mağazanın fəaliyyətə başlamasının şirkət üçün çox önəmli nailiyyət olduğunu vurğulayan Bakcell şirkətinin Baş icraçı direktoru Klaus Müller bildirib: “Əsas məqsədimiz Qarabağ və Şərqi Zəngəzur bölgələrini qısa müddət ərzində ölkənin ən sürətli şəbəkəsinə qoşmaqla Bakcell şirkətinin innovativ məhsullarını bütün abunəçilərə təqdim etməkdir”. Qeyd edək ki, Bakcell şirkəti işğaldan azad olunmuş ərazilərdə şəbəkəsinin genişləndirilməsinə 23 milyon manat həcmində investisiya yatırıb. Xankəndi, Xocavənd, Xocalı, Ağdərə, Əsgəran kimi yaşayış məntəqələrinin mobil şəbəkə ilə əhatə edilməsini qısa zamanda təmin edib. Həmçinin, Şuşa, Zəngilan, Cəbrayıl, Qubadlı, Kəlbəcər, Laçın rayonlarının əhalinin məskunlaşdığı və infrastruktur işlərinin aparıldığı ərazilərdə Bakcell şəbəkəsi abunəçilərə təqdim edilib.



# UŞAQLARI İNTERNAT MƏKTƏBLƏRƏ APARAN SƏBƏBLƏR



**Uşaqların internat müəssisələrinə düşməsinin qarşısının alınması istiqamətində işlər aparılsa da, problem hələ də ciddiliyini qoruyur. Ən pisi odur ki, ildən-ilə internatlara göndərilən uşaqların sayı artır.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

“2021-ci ildə internat tipli ümumtəhsil məktəblərində təhsil alan uşaqların sayı 9960 nəfər idisə, 2022-ci ildə bu rəqəm 10062 nəfər olub”. Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin aparat rəhbəri Ceyran Rəhmətullayevanın Milli Məclisin Ailə, qadın və uşaq məsələləri və insan hüquqları komitələrinin birgə iclası zamanı səsləndirdiyi bu fikirlər problemə diqqəti yönəldib. “Uşaqların internat müəssisələrinə düşməsinin qarşısının alınması istiqamətində işlər aparılsa da, hələ də bu müəssisələrdə uşaqların sayı bizi narahat edəcək dərəcədədir”, - deyən aparat rəhbəri alternativ qayğı müəssisələrinin sayının artırılmasına ehtiyac olduğunu qeyd edib.







Aparat rəhbərinin səsləndirdiyi rəqəm kifayət qədər ciddidir və xüsusən son illərdəki artım narahatlıq doğurmaya bilməz. Dövlətin bu istiqamətdə qayğısı olsa da, uşaqları internat tipli müəssisələrin sakininə çevirən səbəblər ekspertlərin söylədiyi kimi çox müxtəlifdir. Bəs məsələnin həlli yolu nədir?

### QAYĞININ DAHA DA ARTIRILMASINA EHTİYAC VAR

Milli Məclisin Elm və təhsil komitəsinin üzvü, millət vəkili Ceyhun Məmmədov bu istiqamətdə dövlət tərəfindən kifayət qədər addımların atıldığını və layihələrin həyata keçirildiyini bildirir: “Dövlət bu istiqamətdə lazımı addımları atır. Amma rəqəmlər göstərir ki, bu kateqoriyadan olan insanlara qayğının daha da artırılmasına ehtiyac var. Yəni daha çox insanı əhatə etmək, bu prosesə daha çox töhfə vermək lazımdır. Hesab edirəm ki, bu məsələdə hər bir məqam xüsusi təhlil olunmalı və planlaşdırılmış addımlar atılmalıdır”.

### “TƏKCƏ RƏQƏMLƏRİ SÖYLƏMƏKLƏ İŞ BİTMİR”

Təhsil eksperti Asif Cahangirov hesab edir ki, internat tipli məktəblərdə şagirdlərin sayının çoxalması dərindən araşdırılmalıdır: “Təkcə rəqəmləri söyləməklə iş bitmir. Faktlar araşdırılmalı, bu tip məktəblərə düşən şagirdlərin hər birinin həyatı öyrənilməlidir: onlar oraya hansı səbəbdən düşüblər - sosial səbəbdənmi, ailələrin dağılmasındanmı, sağlamlıq məhdudiyyətindənmi və ya onlar müharibədən sonra valideynlərini itirən uşaqlardırmı?”




Fotolar: Rüfət Mikayılov - Tapdıq Abdullayev/Global Media Group

## AİLƏLƏR ÜÇÜN SOSİAL DƏSTƏK PROQRAMLARI ARTIRILMALIDIR

“Təmiz dünya” İctimai Birliyinin sədri Mehriban Zeynalova problemin kifayət qədər ciddi olduğunu bildirir və hesab edir ki, bu istiqamətdə ailələr üçün sosial dəstək proqramları güclənməlidir. Həmçinin milli xüsusiyyətləri özündə əks etdirən “yol xəritəsi” hazırlanmalıdır: “Elə ailələr var ki, uşaqların orada böyüməsinin özü təhlükəli olur. Uşaqların həmin mühitdə qalmalarının qarşısını almaq üçün onlar internat tipli məktəblərə verilirlər. Həqiqətən də bu tipli müəssisələrə müraciət çoxalıb. Boşanan qadınlar uşağa baxa bilmirlər, işləmək istəyirlər. Dayanıqlı İnkişaf Məqsədlərində də qadınların əmək bazarına çıxması üçün şərait yaradılması ilə bağlı bənd var. Dövlət uşaq bağçalarının kifayət qədər olmaması, özəl bağçaların bahalığı qadınların uşaqlarını uşaq evlərinə və internat tipli məktəblərə yerləşdirməsi ilə nəticələnir”. İB sədrinin fikrincə, son vaxtlar ailələrdə narkomaniya bəlasının olması da öz təsirini göstərir: “Baxımsız ailə modelləri çoxalıb. Nənələr-babalar artıq məsuliyyəti üzərlərindən atırlar. Onların bəzilərini qınamaq da olmur, iqtisadi sabitliklərini saxlamaq üçün işləyirlər. Əvvəllər nənə-baba himayəsi vardı və bu eybəcərlikləri görmürdük. İndi vəziyyət dəyişir. Baş verənlər uşaqların travması ilə nəticələnir”. M.Zeynalova hesab edir ki, hələlik alternativ qayğı mərkəzlərini gücləndirməklə problemin qarşısını almaq olar, amma bu da çıxış yolu olmayacaq: “İnternat məktəblərində uşaqların sayının artmasında ailələrin boşanması da böyük tol oynayır. Boşananların ata-anaları “uşağına baxmayacam, gəlirsən, özün gəl”, - deyə, tələb qoyurlar. Aliment məsələsi, evsizlik problemi var. Nəticədə valideynlər boşanır və uşaqlar internat məktəbinə qoyulur”. İB sədrinin fikrincə, boşanan qadınları müvəqqəti yataqxanalarla təmin etmək lazımdır: “Onlar 1-2 il həmin yataqxanada qalar, sonra işləyib ayağa qalxarlar. Sosial evlərin artırılması ilə də onlara dəstək göstərmək olar. Onlar uşaqlarına da özləri baxar və onları internata və ya uşaq evinə verməzlər. Alternativlər var - sadəcə onları düzgün sistemləşdirmək lazımdır”.

## VALİDEYNLƏRİN UŞAQDAN İMTİNA ETMƏSİ HALLARI ÇOXALIR




Psixoloq Aydan Nəzərova problemi daha çox ailələrin sosial-iqtisadi durumu ilə əlaqələndirir: “İnternat tipli müəssisələrdə uşaqların sayının artması səbəblərindən biri ilk növbədə sosial-iqtisadi durumdur. Bəzi qadınlar şiddət, davamlı keçimsizlik olan ailədə uşaq dünyaya gətirir və sonradan problemlər yaşayırlar, nəticədə uşaqlar baxımsız qalırlar. Həmçinin valideynləri narkotik istifadəçisi olan ailələrdə böyüyən uşaqlar da adətən dövlətin himayəsinə keçir və internat tipli məktəblərə göndərilirlər”. Psixoloq ən böyük səbəb kimi valideynlərin özlərinin uşaqlarından imtina etməsini göstərir: “Nigahdan kənar uşaq dünyaya gətirənlər də çoxdur. Bu uşaqlar da internat tipli uşaq müəssisələrinə göndərilir. Elə ailələr də var ki, “vaxtımız yoxdur” deyə, uşaqla maraqlanmırlar. Bu uşaqlar da sonradan problemli uşağa çevrilirlər. Bu cür problemlərin qarşısının alınması üçün valideynlərlə iş aparılmalı, maarifləndirici tədbirlər çoxalmalıdır”.

# BİZ ONDAN DOYMADIQ...






**Əməkdar artist Niftulla Əsgərov yaddaşlarda gülərüz və müsbət insan kimi qalıb. Həmkarları deyirlər ki, istedadlı aktyor idi, iş prosesində də heç vaxt problem yaratmayıb. Baxmayaraq ki, özünün ciddi problemləri olub.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Lənkəran Dövlət Dram Teatrı Əməkdar artist Niftulla Əsgərovla vidalaşdı. Dostları, sənət yoldaşları, doğmaları inanırdı ki, o, bir gün xərçəngə qalib gələcək və yenidən səhnəyə qayıdacaq. Ancaq aktyor sağlığında sevərək oynadığı səhnədən son mənzilə yola salındı. Niftulla Əsgərov doğulub böyüdüyü Girdəni kəndində torpağa tapşırıldı...

Onu yola salmağa çox adamlar gəlmişdi - sənət dostları, rayon ictimaiyyəti, vəzifəlilər, teatrsevərlər... Hamısının da dilindən böyük təəssüf hissi ilə bir fikir səsləndi: "Heyf ki, biz onu itirdik!"

Vidalaşmağa gələnlər onu da qeyd edirdilər ki, mərhum aktyor istedadlı olduğu qədər də mehriban və səmimi insan olub. Rollarını ürəkdən və fədakarlıqla oynadığı üçün tamaşaçılar ona inanıb.

N.Əsgərov 2018-ci ildə Əməkdar artist fəxri adına layiq görülüb. Lənkəran Dram Teatrının səhnəsində oynadığı çoxsaylı rollara sonradan kinoseriallardakı obrazları da rəngarənglik qatıb, yaradıcılığını zənginləşdirib. "Bizim Əhməd haradadır?", "Bayram axşamı", "Vəziyyət rusca", "Elçilik", "Xalxın evi" kimi müasir komediya filmlərindəki xarakterik rolları onu auditoriyaya fərqli ampluada sevdirib.

N.Əsgərov səhnəsinə 1995-ci ildə üz tutduğu Lənkəran Teatrından şəxsi səbəblərdən bir müddət uzaqlaşıb. Xalq artisti Qabil Quliyev təəssüflə bildirir ki, teatrdan uzaqlaşması əslində N.Əsgərovun ziyanına olub: "Kollektivdə işləyirdi, rolları vardı, hamı da hörmətini saxlayırdı. Teatra yenidən qayıdanda isə artıq xəstə idi..."

## KOMMERSİYA KİNOSUNUN SİMASI

"Niftulla müəllim uzun illər Lənkəran Teatrında çalışıb, müxtəlif rollar oynayıb. Sonradan isə Azərbaycan kommersiya kinosunun simasına çevrilmişdi", - deyə Lənkəran Dövlət Dram Teatrının direktor vəzifəsini icra edən İntiqam Hacılı danışır: "Lənkəran teatrında Niftulla müəllimi sevənlər çox idi. Həm kollektiv, həm də teatrsevərlər tərəfindən sevilirdi".

İ.Hacılı xatırlayır ki, N.Əsgərov 1995-ci ildən teatrda işləməyə başlasa da, sonradan müəyyən fasilə onu teatrdan ayırıb: "2022-ci ilin mart ayında yenidən teatra qayıtması üçün müraciət etdi. Biz onu məmnuniyyətlə yenidən teatra qəbul etdik. O əməliyyat keçirmişdi, sağalmaq üzrə idi. Bizim fikrimiz vardı ki, onun üzərində monotamaşalar, komediyalar quraq. Tamaşaçılar yenidən onu səhnədə görsün. Amma xəstəliyi yenidən kəskinləşdi və əməliyyat olundu. Teatrın kollektivi ona baş çəkməyə getdi, o, yenə də hamını mehribanlıqla, həmişəki kimi gülər üzlə qarşılamışdı. Amma sonra bu acı xəbəri eşitdik..."

## "HƏYATDA NƏ QƏDƏR ŞƏN, GÜLƏRÜZ İDİSƏ..."

Əməkdar artist Sucəddin Mirzəyev mərhum həmkarını istedadlı və teatra böyük məhəbbəti olan insan kimi xatırlayır: "Həyatda nə qədər şən, gülərüz idisə, səhnədə də o qədər nikbin idi. Tamaşada bəzən əsərin sözlərini yaxşı xatırlamırdı: "Yadımda saxlaya bilmirəm", - deyə improvizə edirdi. Müəllif sözləri bir yana, onun ifası improvizə ilə adama o qədər ləzzət edirdi ki, tamaşanın qurtarmasını istəmirdin. Səhnədə onunla tərəf-müqabil olanda adam yorulmurdu. Mən tərəf-müqabil kimi ondan doymurdum. Niftulla həyat eşqi yüksək olan insan idi. Onunla üz-üzə gələndə qeyri-ixtiyari üzünə təbəssüm qonurdu, onunla zarafatlaşmaq, deyib-gülmək, "sancmaq" istəyirdin".




S.Mirzəyev hesab edir ki, həmkarının sənət potensialı tam açılmadı: "O, teatra gec gəldi. Əvvəl mədəniyyət sahəsində işləyirdi. Sonradan bildik ki, bizim rayonda teatra həvəsi olan belə istedadlı insan var. Amma o teatra olan potensialını tam nümayiş etdirə bilmədi. Niftulla bəlkə bundan sonra da oynayardı, 65 yaş nədir ki... O, mənə "ağsaqqal, salam" deyəndə, mən ona "gənc, necəsən?" deyirdim". Baxmayaraq ki, 5-6 yaş fərqimiz vardı. O, bu sənətə gəlişi ilə elə bil gənclik illərini yaşayırdı. Niftullanın həyat eşqi, yaşamaq eşqi vardı. Biz ondan doymadıq..."

## "LƏNKƏRANA QONAQ GƏLİN..."

"My name is İntiqam" komediya filmində birgə çəkildiyi sənət dostu, Əməkdar artist Teymur Məmmədov N.Əsgərovun ölümünü Azərbaycan teatrı və kinosu üçün itki hesab edir: "Mehriban, sakit adam idi. Fəxri adı da eyni vaxtda almışdıq. İstedadlı aktyor idi. Rejissorlar onunla işləməyi xoşlayırdılar. Zarafatcıl idi, yumoru vardı. Kimi görürdüsə, "Lənkərana qonaq gəlin" deyirdi.

"Xalxın evi" serialındakı tərəf-müqabillərindən olan Əməkdar artist Çingiz Əhmədov mərhum aktyoru səmimi və təmkinli insan kimi xatırlayır: "Xalxın evi" serialı 3 mövsüm ərzində çəkildi. Biz onunla üç il dalbadal bir serialda oynadıq. Niftulla müəllim mənim atamın rolunu oynayırdı. Həmin müddətdə onu çox səmimi insan kimi tanıdım. Elə sənətkarlar çox az olur. O, səliqəli, təmkinli bir insan idi. Heyf ki, aramızdan tez getdi..."

## PROFESSOR, NECƏSİNİZ?

Lənkəran Teatrında vaxtilə baş rejissor işləyən Tural Mustafayev mərhum aktyorla quruluş verdiyi "Ruhlar" tamaşasında işləyib: "Bakıdan Lənkərana gedəndə məni elə mehribanlıqla qarşıladı ki, heç vaxt unuda bilmərəm. Niftulla müəllim yadımda gülərüz və müsbət insan kimi qalıb. İş prosesində də heç vaxt problem yaratmazdı. Baxmayaraq ki, özünün problemləri vardı, amma biz bunu məşq prosesində hiss etməzdik". Rejissor bildirir ki, mərhum aktyor onun hazırladığı "Ruhlar" tamaşasında professor rolunda oynayıb. Bu, onun ən yaddaqalan rollarından olub: "Həmişə ona "Professor" deyirdim. Bakıya qayıdandan sonra da zəngləşib hal-əhval tutanda "Professor, necəsiniz?" deyə soruşurdum. Niftulla müəllim xarakterik aktyor idi. O, ikinci dərəcəli rolları elə oynayırdı ki, bütün diqqət ona yönəlirdi. İstedadlı aktyor kiçik rolu böyük rola çevirə bilir. Niftulla müəllim də belə aktyorlardan idi".

Kaspi İDMAN
ÜÇ ƏSRİN QƏZETİ
27 YANVAR ŞƏNBƏ 2024 www.kaspi.az




İngiltərə Premyer Liqasında 21 matçda 48 xal toplayan "Liverpul" zirvədədir. İspaniya çempionatında gedişat daha sürprizlidir. İtaliyanın yaşıl meydanları gərgin mübarizəyə səhnədir. Almaniyada "Bavariya"nın hegemonluğuna son qoyulması ehtimalları müzakirə olunur.

# "BÖYÜK BEŞLİK"DƏ SÜRPRİZLƏR MÖVSÜMÜ

Futbol üzrə "Böyük beşlik" liqalarında mövsümlər ekvatoru keçib. Bu dəfə çempionluq uğrunda ənənəvi iddiaçılarla yanaşı, yeni komandalar da güc nümayiş etdirir. Xüsusən, "Bayer", "Jirona", "Aston Villa"nı qeyd etmək olar.

### "DUMANLI ALBİON"DA "ŞƏHƏRLİLƏR"İ ÇƏTİNƏ SALANLAR

İngiltərə Premyer Liqasında 21 matçda 48 xal toplayan "Liverpul" zirvədədir. Ancaq "qırmızılar"ın liderliyi bir qədər kövrək görünür. Əslində, komandanın heyət baxımından tam komplektləşməməsi bunu həm də gözlənilməz hesab etməyə əsas yaradır. Kollektivin lideri Məhəmməd Salahın Afrika Millətlər Kubokunda zədələnməsi problemlərə yenisini əlavə edib. Lakin Yurgen Klopp amili "Liverpul"un ən güclü silahıdır və mövsümün qalan hissəsində də komandanın məhz baş məşqçinin sayəsində çempionluq mübarizəsini davam etdirəcəyi ehtimal edilir.

"Mançester Siti", "Arsenal" və "Aston Villa" 43 xalla "Liverpul"u təqib edirlər. "Topçular" mövsümə çox yaxşı başlasalar da, son zamanlar nəticələrində müəyyən eniş yaşanır. "Aston Villa" isə Unay Emerinin rəhbərliyi altında şansından maksimum yararlanmağa, müqavimət göstərməyə çalışır. Bu üçlüdən "Mançester Siti"nin ehtiyatda bir oyunu da var. Son üç mövsümün qalibi olan Pep Qvardiolanın komandası Kevin De Bruynenin zədədən qayıtması ilə daha şanslı görünür. Lakin adıçəkilən digər üç kollektiv və Ange Postekoqlunun rəhbərliyi altında "Tottenhem" "şəhərlilər"ə kifayət qədər çətinlik yaradırlar. "Mançester Yunayted" və "Çelsi" üçün isə bu mövsümü də itirilmiş hesab etmək olar.



## LA LİQADA "JİRONA" MÖCÜZƏSİ

İspaniya çempionatında gedişat daha sürprizlidir. "Jirona" 21 matçda topladığı 51 xalla zirvədə qərarlaşıb. Komanda oynadığı şən futbol, ən güclülərdən belə çəkinmədən hücum oyunu göstərməsi ilə proqnozları alt-üst edib. Təsadüfi deyil ki, Kataloniya klubu 51 qolla mövsümün ən məhsuldar komandasıdır. Potensial lider isə "Real Madrid"dir. Komanda "Jirona"dan 1 oyun az keçirib və 1 xal geridədir. Kərim Benzemanın gedişindən sonra hücumda çətinlik yaşaması gözlənilən "Kral klubu" bəzi görüşlərdə bunu hiss etsə də, xüsusən Cud Bellinqemin fantastik çıxışı həmin çatışmazlığı aradan qaldırmağa kifayət edir. İstənilən halda, "Real" çempionluğa əsas namizəd hesab edilir. Madridin digər təmsilçisi "Atletiko" və son çempion "Barselona" daha çox 3-cü yer uğrunda yarışır. Kataloniyalıların qeyri-stabil çıxışı bəzi azarkeşlərdə baş məşqçi Xaviyə inamı azaldıb. Mövsümün fiaskosu isə "Sevilya"dır. Cəmi 16 xal yığan əndəlusiyalılar 17-ci yerdədirlər.

## "YUVENTUS"UN GERİDÖNÜŞÜ

İtaliyanın yaşıl meydanları gərgin mübarizəyə səhnədir. Ötən mövsüm maliyyə maxinasiyalarına görə xalları silinən, avrokuboklardan uzaqlaşdırılan "Yuventus" gözləniləndən daha yaxşı çıxış edir. Massimilyano Alleqri gənc və təcrübəli oyunçulardan möhkəm kollektiv formalaşdıra bilib. Komanda 21 görüşdə topladığı 52 xalla 1-cidir. "Qoca sinyora"nın əsas qol silahı Duşan Vlahoviç isə son zamanlardakı performansı ilə nəhayət, özünü göstərməyi bacarır. Bununla belə, çempionluğa əsas namizəd "İnter" hesab olunur. Simone İnzaginin komandasının göstərdiyi futbol daha yetkindir. Əsas rəqibindən 1 oyun az keçirən "nerazzuri" ondan cəmi 1 xal geri qalır.

Son çempion "Napoli"də işlər yolunda getmir. Luçano Spalettidən sonra istədiyi baş məşqçini tapa bilməyən Neapol təmsilçisi 9-cu pillədədir. 8-ci "Roma" da zəif mövsüm keçirir. Joze Mourinyo ilə yolları ayıran "canavarlar" Daniele De Rossinin rəhbərliyi altında gedişatı dəyişməyə çalışacaq. "Milan" isə "Yuventus" və "İnter"dən geri qalmamaqda israrlıdır.

## ALMANİYA BUNDESLİQASINDA "BAYER" FIRTINASI ƏSMƏKDƏDİR

Almaniyada "Bavariya"nın hegemonluğuna son qoyulması ehtimalları müzakirə olunur. Düzdür, bır sıra mütəxəssislər Münhen təmsilçisinin yekunda yenidən zirvədə qərarlaşacağını ehtimal edirlər. Lakin "Bayer"in möhtəşəm performansı Tomas Tuxelin komandası üçün real təhlükədən xəbər verir. Leverkuzen klubu 18 oyunda 48 xal yığıb və "Bavariya"nı 4 xal üstələyir. Xabi Alonsonun komandası hazırda bütün turnirlər daxil olmaqla, Avropada məğlubiyyət üzü görməyən yeganə kollektivdir. "Bayer"in bu performansı nə qədər davam etdirə biləcəyi dünya futbolunda əsas müzakirə mövzularındandır.

Dortmund "Borussiya"sı, "Leypsiq" və "Ştutqart" isə bürünc medalçını müəyyənləşdirməyə çalışacaqlar. Onların "Bavariya" və "Bayer"lə çempionluq mübarizəsinə qoşulması inandırıcı deyil.

### KÖHNƏ HAMAM, KÖHNƏ TAS

Fransa Liqa 1-də dəyişən heç nə yoxdur. Çempionat PSJ-nin hegemonluğu ilə davam edir. 18 oyunda 43 xal toplayan Luis Enrikenin komandası ən yaxın izləyicisi "Nitsa"dan 8 addım öndədir. Bundan sonra hansısa rəqibinin onlara problem yaradacağı inandırıcı görünmür. Fransada mövsümün fiaskosu isə "Lion"dur. Köklü klub 16 oyunda cəmi 16 xal yığıb və hazırda düşmə zonasındadır.

